Xalqın qəzeti!

# Xalq qəzeti

№ 38 (30732) 20 fevral 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Böyük Qayıdışın iri addımları

## Prezident İlham Əliyevin Xankəndiyə və Xocalıya səfəri

### Xankəndidə "Bulud" hoteli istifadəyə verilib




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Xankəndi şəhərində əsaslı təmir və bərpadan sonra "Bulud" hotelinin açılışında iştirak edib.**

Prezidentin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Ümumi sahəsi 5325 kvadratmetr olan hotel beş mərtəbədən ibarətdir. Hoteldə 45 nömrə var və 91 qonaq qəbul edə biləcək. Müasir iaşə məkanlarının yaradıldığı hoteldə "Lobby lounge", kafe, açıq və qapalı restoranlar fəaliyyət göstərəcək.

Hoteldə 50 nəfər işlə təmin olunub.

**(ardı 2-ci səhifədə)**

# Avropanın miskin durumuna ağlamaq...

### *Saxtakarlıq göz yaşları ilə yuyulacaqmı?*

**Münxen Təhlükəsizlik Konfransının (MTK) rəhbəri Kristof Housgen toplantının builki bağlanış mərasimində çıxış edərkən, göz yaşlarına hakim ola bilməyib ağladı. Cənab Housgen bunu belə əsaslandırdı: "Konfrans Transatlantik missiya funksiyası daşısa da, ABŞ-ın vitse-prezidenti Cey Di Vensin çıxışından sonra iştirakçı dövlətlər arasında dəyər bazasının ümumi olmamasına görə narahatlıq keçirib.**



Qeyd edək ki, C.Vens MTK-da çıxışı zamanı Avropanı, necə deyərlər, yıxıb sürüdü. Bildirdi ki, qitə özünün yaratdığı böhranla üz-üzədir. Böhranı şərtləndirən Avropanın seçicilərindən qorxmasıdır və bu vəziyyətdə qitə ABŞ üçün də faydasızdır. "Avropa problemlərlə üz-üzədir. Lakin qitə indi üzləşdiyi böhranı özü yaradıb. Öz seçicilərinizdən qorxursunuzsa, Amerikanın sizə təklif edəcəyi heç nə yoxdur, eləcə də sizin məni və prezident Trampı seçən Amerika xalqına təklif edə biləcəyiniz heç bir şey yoxdur. Önümüzdəki illərdə mühüm işlər görmək üçün sizin demokratik mandata ehtiyacınız var", – deyən Vensin sözlərindən belə nəticə hasil olub ki, Avropa dövlətləri ABŞ-ın gözündə bəraət almaq üçün öz vətəndaşlarına qarşı daha həssas olmalıdırlar. Hər halda, dünyaya demokratiya dərsi deyən qitə liderlərini hələ belə danlayan olmamışdı. Görünür, danlaqdan nəticə çıxaran ancaq Housgendir.

***(ardı 5-ci səhifədə)***

# Xəzər İqtisadi Forumu regionda əlaqələri gücləndirəcək



**Fevralın 18-də İran İslam Respublikasının paytaxtı Tehranda III Xəzər İqtisadi Forumu keçirilib. Forum çərçivəsində keçirilən danışıqlarda Xəzərdə beştərəfli əməkdaşlığın bir sıra mühüm məsələlərinə diqqət yetirilib.**

Xəzər İqtisadi Forumu ilk dəfə 2019-cu il avqustun 11-12-də Türkmənistanın Türkmənbaşı şəhərində keçirilib. Toplantının fəaliyyət təşəbbüskarı da elə bu ölkənin keçmiş Prezidenti Qurbanqulu Berdiməhəmmədov olub. O, I forumda çıxış edərək toplantını "çoxtərəfli iqtisadi dialoq üçün daimi platforma" kimi dəyərləndirib və hər il növbə ilə Xəzəryanı dövlətlərdə keçirilməsini təklif edib. Lakin 2020-ci və 2021-ci il forumları COVID-19 pandemiyası səbəbindən təxirə salınıb.

II Xəzər İqtisadi Forumu 2022-ci il oktyabrın 5-6-da Moskvada keçirilib. Forumda həm Xəzər beşliyinə daxil olan dövlətlərdən, həm də bəzi qonşu ölkələrdən (xüsusən Belarus, Qırğızıstan və Özbəkistandan) 1000-dən çox nümayəndə iştirak edib. Toplantıda birgə nəqliyyat, enerji, ekoloji və digər layihələr müzakirə olunub. Forumda əsas diqqət Şimal–Cənub nəqliyyat dəhlizinin inkişafına yönəldilib, eyni zamanda, Həştərxan və Mahaçqalada Xəzər dənizi sahilində nəqliyyat infrastrukturunun yaradılması, eləcə də İran–Azərbaycan–Rusiya marşrutu üzrə daşımaların həyata keçirilməsi ilə bağlı dəhlizin inkişafına dair bir sıra layihələr təqdim olunub.

**(ardı 7-ci səhifədə)**

# Xarici ticarətdə ixrac idxalı 986 milyon dollar üstələyir



**Səhifə ⇨ 9**

# Rusiya–Ukrayna savaşı: diplomatlar fəallaşır



**Səhifə ⇨ 11**

# Azərbaycanın örnək strategiyası

### *Problemini həll etmək şansından məhrum olmuşların menyusuna*

**XXI əsrin özünəməxsus özəllikləri Yer sakinlərini təəccübləndirməkdə davam edir. Yeni minillikdə dünyanın köhnə düzəninin dağılma prosesinin getdiyi, köhnə qayda və prinsiplərdən imtina edildiyi gözümüzün qarşısındadır. Bu minvalla bəşəri dəyərlərin getdikcə arxa plana keçəcəyi, beynəlxalq hüququn tezliklə məhv ediləcəyi yeni dövrə qədəm qoyuruq. "Böyük güclər" dediyimiz "köhnə oyunçular"ın siyasət bazarının coğrafiyasına baxışlarının, maraqlarının və planet sakinlərindən umacaqlarının da dəyişdiyini, böyüdüyünü müşahidə etməkdəyik.**

XX əsrin böyük siyasətçisi və dövlət xadimi Uinston Çörçilin sözləridir: "Bəşəriyyət fırtınada üzən gəmiyə bənzəyir. Kompas zədələnib, dəniz xəritələri köhnəlib, kapitan suda boğulub, matroslar növbə ilə onu əvəz etməlidirlər. Üstəlik, sükanın hər vəziyyətini nəinki ekipaj üzvləri ilə, eləcə də göyərtədəki bütün sərnişinlərlə razılaşdırmaq lazımdır…"



**(ardı 7-ci səhifədə)**

# Xankəndidə "Bulud" hoteli istifadəyə verilib





**(əvvəli 1-ci səhifədə)**

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərimiz tarixi-mədəni abidələrlə yanaşı, füsunkar təbiətə, yeraltı və yerüstü sərvətlərə, geniş turizm imkanlarına malikdir. Bölgədə müalicəvi turizm, istirahət turizmi, ekoturizm və turizmin digər növlərinin inkişaf etdirilməsi üçün böyük imkanlar var. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda nəzərdə tutulan əsas prioritetlərdən biri də məhz bu bölgədə turizmin müxtəlif növlərinin inkişafı üçün zəruri təminatların yaradılmasıdır. Artıq son illər bu istiqamətdə genişmiqyaslı işlər görülür. Füzuli və Zəngilanda yaradılan, Laçında tikintisi davam edən beynəlxalq hava limanları, inşa olunan müasir hotellər və həyata keçirilən digər infrastruktur layihələri azad olunan ərazilərimizin turizm potensialının reallaşmasında, turistlərin bu bölgələrə cəlb edilməsində mühüm rol oynayacaq.

# Azərbaycan–Özbəkistan birgə müəssisəsi ilə tanışlıq





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Azərbaycan–Özbəkistan birgə müəssisəsi olan Xankəndi tikiş fabrikinin fəaliyyəti ilə tanış olub. Dövlətimizin başçısına istehsal müəssisəsi barədə məlumat verildi.**

Qeyd edək ki, ərazisi 1,2 hektar olan fabrikin inşası Azərbaycan və Özbəkistan arasında iqtisadi və investisiya əməkdaşlığının dərinləşdirilməsinə dair iki ölkə prezidentlərinin tapşırıqlarına əsasən həyata keçirilib. Layihənin ümumi investisiya dəyəri 11 milyon manat təşkil edir. İndiyədək 5,5 milyon manat investisiya qoyulub. Fabrikin xammal tədarükü üçün birgə sənaye əməkdaşlığı həyata keçirilir. Həmçinin fabrik tam gücü ilə işlədikdən sonra yerli pambıq xammalı əsasında parça toxunması üçün istehsal sahəsinin yaradılması nəzərdə tutulur.

Ümumilikdə, burada 800 iş yeri yaradılacaq. Layihənin ilkin mərhələsi üzrə peşəkar təlim almış 300 nəfər hazırda işlə təmin olunub. Müəssisədə əsasən işğaldan azad edilmiş ərazilərə qayıdan və ətraf rayonlarda yaşayan vətəndaşların məşğulluğuna xüsusi diqqət yetirilib.

Müəssisə fəaliyyətə başlayandan bəri 50 minə yaxın idman köynəyi istehsal edilib. Bu il 924 min ədəd köynək istehsalı planlaşdırılır. Gələcəkdə isə Xankəndi tikiş fabrikində ildə 3–5 milyon ədəd müxtəlif trikotaj məhsulları istehsal edilməsi nəzərdə tutulur. Fabrikdə istehsal olunacaq məhsullar müxtəlif ölkələrə də ixrac ediləcək.

Azərbaycan–Özbəkistan birgə müəssisəsi olan Xankəndi tikiş fabriki yüngül sənayenin inkişafı üçün yeni imkanlar açır və ölkələrimiz arasında ənənəvi dostluq, qardaşlıq, iqtisadi tərəfdaşlıq əlaqələrini möhkəmləndirir.

Xatırladaq ki, ötən ilin noyabrında Bakıda keçirilən COP29 tədbiri zamanı Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən videobağlantı vasitəsilə Xankəndi tikiş fabrikinin açılışı olub.

# Zəfər parkının təməli qoyulub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Xankəndi şəhərində Zəfər parkının təməlqoyma mərasimində iştirak edib.**

AZƏRTAC bildirir ki, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov dövlətimizin başçısına parkda görüləcək işlər barədə ətraflı məlumat verdi.

Xankəndi şəhərində Zəfər parkının salınması məqsədilə 12,9 hektar ərazidə söküntü işlərinin aparılması nəzərdə tutulub. Ərazi şərti olaraq iki hissəyə bölünüb və 8,3 hektar sahəsi olan birinci hissədə söküntü işləri artıq yekunlaşıb. İkinci hissə isə 4,6 hektar ərazini əhatə edir. Burada da söküntü işləri aparılacaq.

Ərazidəki mövcud ağacların qorunması məqsədilə aidiyyəti təşkilatlarla birgə baxış keçirilib və müxtəlif növ 262 ağac müəyyən edilib. Bundan başqa, parkın ərazisində 21 növ üzrə 300-dən çox ağacın əkilməsi nəzərdə tutulur.

Hazırda ərazidə planlaşdırma işləri görülür.

Prezident İlham Əliyev Xankəndi şəhərində Zəfər parkının təməlini qoydu.



Qeyd edək ki, ölkəmizdə yaradılan Zəfər parkları xalqımızın Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın, qazandığı möhtəşəm tarixi Qələbənin, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpasının rəmzidir.

Ölkəmizin müxtəlif bölgələrində, o cümlədən Xankəndi şəhərində yaradılacaq Zəfər parkı tarixi Qələbəmizin yaddaşlarda yaşadılması, yaradılmış qəhrəmanlıq nümunələrinin əbədiləşdirilməsi, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması üçün mühüm əhəmiyyətə malikdir. Zəfər parkı Azərbaycanın gücünü, xalqımızın əzmini və azərbaycanlıların Vətən torpağına olan bağlılığını göstərən bir məkandır.

# Prezident İlham Əliyev Xocalının Ballıca kəndində

*Dövlət başçısı bərpa işləri ilə tanış olub, sakinlərlə görüşüb*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Xocalı rayonunun Ballıca kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olub, sonra kəndə köçən bir qrup sakinlə görüşüb.**

Dövlətimizin başçısı əvvəlcə kənd sakini Məmməd Quliyevin evində yaradılan şəraitlə tanış oldu.

**Kişi sakin:** Cənab Prezident, xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Salam, xoş gördük.

**Qadın sakin:** Xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Necəsiniz?

**Kişi sakin:** Çox sağ olun, Xocalı rayonunun Ballıca kəndinə xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Kişi sakin:** Allah Sizi qorusun, bu günü bizə yaşatdınız.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Kişi sakin**: 30 illik həsrətimizə son qoydunuz.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

**Kişi sakin:** Sağ ol, qadan alım.

**Prezident İlham Əliyev:** Siz bu kənddənsiniz?

**Kişi sakin**: Bəli. Buyurun keçin.

Xoş gəlmisiniz, cənab Prezident, Sənə qurban olum.

**Prezident İlham Əliyev:** Xoş gördük. Necə yaşayırsınız burada?

**Kişi sakin:** Yaxşı, keç stolun başına, keç oraya. Sənə qurban olum, sən gələn yollara qurban olum.

**Prezident İlham Əliyev:** Ballıca kəndinə yerləşdiyiniz üçün sizi təbrik edirəm.

**Kişi sakin:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Əyləş qızım. Uzun illərin həsrətinə son qoyduq.

**Kişi sakin:** Allah Sənə dəyməsin, intizarımıza son qoydun. Bu elə-belə son deyil. Bu, böyük sondur.

**Prezident İlham Əliyev:** Vaxtilə işğal altında olmuş bütün şəhər və kəndlərimizi indi bərpa edirik. Ballıca kəndi 10-cu yaşayış məntəqəsidir ki, işğaldan sonra biz artıq bu kəndi də bərpa etdik. Mənə verilən məlumata görə, artıq 460 keçmiş köçkün burada yerləşib, 137 ev bərpa edilib və əlavə təqribən 60-a yaxın ev də bərpa olunacaq. İndi 460 insan artıq bu kənddə yerləşib, şərait də yaxşıdır.

**Kişi sakin:** Qəşəng şəraitdir. Hamısı da eynidir.

**(ardı 3-cü səhifədə)**

# Prezident İlham Əliyev Xocalının Ballıca kəndində





(əvvəli 2-ci səhifədə)

**Prezident İlham Əliyev**: Evlər bərpa edilib, yenidən tikilib. Burada rahat yaşamaq üçün bütün şərait, imkanlar var. Bildiyiniz kimi, Ballıca kəndini biz 2023-cü ilin sentyabrında azad etdik. Torpaqlarımızın işğaldan azad edilməsi mərhələli yollarla təmin olunmuşdur. İkinci Qarabağ müharibəsi və ondan sonra antiterror əməliyyatı ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpa edilməsinə gətirib çıxardı, separatçıların kökü kəsildi. Azərbaycan ərazisində separatizmin kökü tam kəsilmişdir və Azərbaycan vətəndaşları öz doğma torpağına qayıda bilirlər. İndi hər yerdə quruculuq, bərpa işləri aparılır. Dünən mən Ağdam rayonunda idim. Ağdam şəhəri sıfırdan inşa edilir və gözəl şəhər olacaq. Xankəndini də biz bərpa edəcəyik və vaxtilə burada yararsız vəziyyətə düşmüş binalar indi sökülür, yeni binalar inşa edilir və ediləcək. Bildiyiniz kimi, Qarabağ Universiteti artıq fəaliyyət göstərir və bu il yeni korpuslar inşa olunacaq. Artıq orada mindən çox tələbə oxuyur. Ona görə hər cür şərait var - ali məktəb var, orta məktəblər var, xəstəxanalar, ictimai yerlər, iş yerləri. Bu gün mən tikiş fabrikinin fəaliyyəti ilə tanış oldum. Artıq 200-dən çox işçi var. Özü də əksəriyyəti, demək olar ki, mütləq əksəriyyəti qadınlardır. Qadınlar üçün də iş yerləri yaradılıb. Əsas odur ki, indi tikinti-bərpa işləri sürətlə getsin. Bunun üçün bütün gücümüzü səfərbər etmişik, o cümlədən Ballıca kəndinin bərpası da artıq son mərhələdədir. Təbii ki, Ballıcada olub, balın dadına baxmamaq mümkün deyil. Bu, Ballıca balıdır, yoxsa başqa yerdən gətirilib?

**Qadın sakin**: Bunu öz təsərrüfatımdan gətirmişəm, inşallah, gələcəkdə...

**Xüsusi nümayəndə Elçin Yusubov:** Cənab Prezident, vətəndaş özü arıçılıqla məşğuldur.

**Qadın sakin:** Təsərrüfatım da var.

**Prezident İlham Əliyev:** Əlavə tövlə də tikiləcək?

**Qadın sakin:** Əlavə tövlə də tikiləcək.

**Prezident İlham Əliyev:** Mal-qara var?

**Qadın sakin:** Bəli, 20 baş varımdır. Arım da var.

**Elçin Yusubov:** Satış üçün dükan da verdik cənab Prezident.

**Prezident İlham Əliyev**: Örüş yerləri də...

**Elçin Yusubov:** Var, var. Siz tapşırıq verdiniz, artıq danışmışam.

**Prezident İlham Əliyev**: Bəli, tapşırıq verdim ki, torpaq sahələri ayrılsın, həm örüş yerləri, həm əkinçilik üçün.

**Kişi sakin:** Çox sağ ol, cənab Prezident. Ulu öndər Heydər Əliyev o vaxt Azərbaycanın rəhbərliyində olsaydı, bu bəlalar başımıza gəlməzdi. Allah onun yerini behişt eləsin, Səni də ömür boyu Azərbaycanın üstündən əskik etməsin.

**Prezident İlham Əliyev:** Sağ olun, çox sağ olun.

**Kişi sakin:** İndiyədək ermənilər müsəlmanları qırıb. Onların cavabını Sən verdin. Allah Səni qorusun, balalarını qorusun!

**Qadın sakin:** Allah şəhidlərimizə də rəhmət eləsin, qazilərimizə cansağlığı versin.

**Prezident İlham Əliyev:** Sağ ol, ağsaqqal, çox sağ ol. Bu, bizim borcumuz idi, torpaqlarımızı işğalçılardan azad etmək bizim milli ideyamız idi. Bütün Azərbaycan xalqının iradəsi və şəhidlərimizin, qəhrəmanların fədakarlığı, şücaəti hesabına biz buna nail olmuşuq.

**Kişi sakin:** Olmusan. Olmusan, Sənə qurban olum.

**Prezident İlham Əliyev:** Təbii olaraq Ali Baş Komandan kimi bütün əməliyyatlara özüm rəhbərlik etmişəm və yenə də deyirəm, mənim üçün Prezident kimi bu vəzifədən daha ümdə vəzifə olmayıb heç vaxt. Bütün prezidentlik dövrümü də buna həsr etmişəm ki, biz torpaqlarımızı azad edək, işğalçıları torpağımızdan qovaq, haqq-ədaləti və milli ləyaqətimizi bərpa edək. Buna da nail olduq.

**Kişi sakin:** Sən oldun Prezidentim, sənə qurban olum.

**Prezident İlham Əliyev:** Çox sağ ol. Əlbəttə ki, siz də qeyd etdiyiniz kimi, əgər ulu öndər Heydər Əliyev o vaxt Azərbaycanda hakimiyyətdə olsaydı, heç vaxt torpaqlarımız işğal altına düşməzdi. Bilirsiniz ki, o illərdə qanunsuz Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmışdı və fəaliyyət göstərirdi. Ulu öndər çalışırdı ki, burada yaşayan azərbaycanlıların hüquqları təmin edilsin. Ancaq o, 1980-ci illərin sonlarında siyasi səhnədən gedəndən sonra bizim başımıza bu bəla gəldi. Yəni, o, istefa verəndən iki həftə sonra erməni separatçıları baş qaldırıb bizə qarşı ərazi iddiası ilə çıxış etmişdilər. Əfsuslar olsun ki, ovaxtkı Azərbaycan rəhbərliyi bu məsələyə laqeyd yanaşdı. Faktiki olaraq fəaliyyətsiz idi və separatçılar daha geniş imkanlara malik oldular. Mərkəz, yəni Sovet İttifaqının rəhbərliyi onların tərəfində idi, ovaxtkı Dağlıq Qarabağı Azərbaycandan ayırmaq üçün bütün çirkin əməllərindən də çəkinmirdi. Burada xüsusi komitə yaradıldı və o komitə faktiki olaraq Qarabağı Azərbaycandan ayırmaq üçün bir vasitə idi. Mən sovet dövrünün tarixini qeyd edirəm. O ki qaldı, müstəqillik dövrünə, müstəqillik elan olunandan dörd ay sonra Xocalı soyqırımı törədildi, bu da böyük vəhşilik, barbarlıq idi. Ondan sonra digər kəndlərimizin sakinləri soyqırımına məruz qaldılar, bütün azərbaycanlılar Xankəndidən və ətraf kəndlərdən didərgin salındılar. Sonra yeddi rayonumuz işğal edildi. Bütün bunlar ovaxtkı Azərbaycan rəhbərliyinin cinayətləri nəticəsində baş vermişdir. Əgər Heydər Əliyev xalqın tələbi ilə vaxtında hakimiyyətə gəlməsəydi və o vaxt müharibə dayanmasaydı, bəlkə də daha da böyük ərazilər işğal altına düşərdi.



**Kişi sakin:** Heydər baba gəlməsəydi, hamısı xanlıq olub hərəsi bir tirə aparası idi, burada dövlət olmayacaqdı. Hər şey göz qabağında idi.

**Prezident İlham Əliyev:** Bəli, düz deyirsiniz, elədir. Dövlət qurdu, ordu qurdu. Azərbaycan vətəndaşları indi burada gözəl evlərdə rahat yaşayırlar. Ev-eşik, təsərrüfat, mal-qara, hər şey. Bal da, maşallah çox dadlıdır. Bu bölgənin balının da fərqli dadı var.

**Kişi sakin:** Bu, qaratikan balıdır.

**Prezident İlham Əliyev:** Mən 2020-ci ildən sonra - müharibədən sonra, Zəfərimizdən sonra ancaq bu bölgənin balını yeyirəm. Kəlbəcər və Laçın balını. İndi Ballıca balı da yedim.

**Kişi sakin**: Mən ürəyimdə deyirdim ki, İlahi, görəsən, qismət olar ki, gedək Ballıcadan keçək, Vətənə baxaq? Ay Allah, bu günü bizə nəsib eləyənə qurban olum. Bu, böyük Qələbədir, böyük Qələbədir.

**Prezident İlham Əliyev:** Sizi bir daha təbrik edirəm, xoşbəxt yaşayın.

**Kişi sakin:** Çox sağ olun.

***

Sonra Prezident İlham Əliyev kənd sakini Əvəz Orucovun evində yaradılan şəraitlə tanış oldu.

***

Daha sonra Ballıca kənd sakinləri ilə görüş oldu. Dövlətimizin başçısı görüşdə çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı

– İki aydır ki, Ballıca kəndində keçmiş köçkünlər yaşayır. Mən bu gün burada bir neçə keçmiş köçkünlə görüşmüşəm, ev şəraitinə baxmışam. Şadam ki, uzun fasilədən sonra Ballıca kəndinə də artıq həyat qayıdıb. Keçmiş köçkünlər indi demək olar ki, hər ay hissə-hissə, qrup-qrup öz dədə-baba torpaqlarına qayıdırlar. Böyük Qayıdış Proqramı icra edilir. Demək olar ki, vaxtilə işğal altında olan bütün torpaqlar bərpa edilir. Dünən Ağdam rayonunda gedən quruculuq-bərpa işləri ilə tanış olmuşam. Bu gün buradayam. Eyni zamanda, Xankəndidə də olmuşam, orada da gözəl işlər görülür, yeni iş yerləri, yeni müəssisələr yaradılır. Mənim Sərəncamımla Qarabağ Universiteti yaradılmışdır. Orada mindən çox tələbə oxuyur. Orta məktəblər, tibb məntəqələri inşa olunur. Yəni, həyat üçün nə lazımdırsa, hər şeyi edirik, həm şəhərləri, həm də kəndləri bərpa edirik.

Ballıca kəndinin də bərpası artıq son mərhələdədir. Mənə verilən məlumata görə, 137 ev artıq bərpa edilib və 60-a yaxın ev hələ bərpa olunacaq. Ballıcada artıq 460 keçmiş köçkün yerləşib. Evləri bərpa etmişik, kənd təsərrüfatı ilə məşğul olmaq üçün imkanlar yaxşıdır, torpaq münbitdir, hava da təmizdir. Bütün Qarabağ bölgəsi, Şərqi Zəngəzur bölgəsi dirçəlir və hər gün biz bunu əyani şəkildə görürük.

Əlbəttə ki, Vətən həsrəti ilə yaşamış insanlar üçün ən yaxşı şəraiti yaratmaq dövlətimizin borcudur. Mənim də Prezident kimi əsas borcum bu gün bundan ibarətdir. İşğala son qoyduq, 2023-cü ildə antiterror əməliyyatı nəticəsində bu bölgəni də işğaldan azad etdik. Ballıca və yüzlərlə digər yaşayış məntəqəsi artıq işğalçılardan tam azad olunmuşdur və indi həyatı bərpa edirik. Yəni, hər şeyi mərhələli yollarla edirik, öz gücümüzlə, bizə heç kim kömək etmir. Ancaq öz imkanlarımız daxilində, öz gücümüzə arxalanaraq, Azərbaycan xalqının imkanlarına arxalanaraq, dövlət hesabına bütün bərpa-quruculuq işləri aparılır, özü də qısa müddət ərzində.

İndi İkinci Qarabağ müharibəsindən dörd il keçibdir, baxın, nə qədər böyük işlər görüldü, hər yerdə, təkcə Xocalı rayonunda yox. Halbuki Xocalı şəhərini bərpa etmək bizim ən başlıca borcumuz idi. Çünki müharibədən və işğaldan, Birinci Qarabağ müharibəsinin çətin vəziyyətindən əziyyət çəkən ən çox elə xocalılılar olmuşdur, onlara qarşı soyqırımı törədilmişdi. Ona görə Xocalını azad etmək hər zaman gündəlikdə duran məsələ idi. İkinci Qarabağ müharibəsi 2020-ci il noyabrın 10-da dayanandan sonra yenə də bütün köçkünlər bilirdilər ki, Xocalı azad olunmayana qədər biz işimizi bitmiş hesab etməyəcəyik. Nəinki Xocalı, Xankəndi də, Ağdərə, Xocavənd və Əsgəran rayonları da işğalçılardan tam azad edildi. Yüzlərlə kənd artıq öz sahiblərini gözləyir.

Ballıca kəndi bərpa etdiyimiz və keçmiş köçkünlərin qayıtdığı 10-cu yaşayış məntəqəsidir. Yəni, bu, Böyük Qayıdış Proqramının birinci mərhələsinə aiddir. Artıq burada, yenə də deyirəm, 500-ə yaxın insan yaşayır. Həm o vaxt bu bölgədə yaşayan vətəndaşlar, eyni zamanda, onların uşaqları, nəvələri, nəticələri qayıdıblar. Bu, bir daha onu göstərir ki, xalqımız öz torpağına nə qədər bağlıdır. Bu gün bölgəni, bu yerləri görməyən balaca uşaqlar, yaxud da ki, gənc insanlar həvəslə qayıdırlar, işləyirlər, qururlar, yaradırlar. Öz torpaqlarına qayıdan keçmiş köçkünlərlə çoxsaylı görüşlər əsnasında həmişə gənclərdən soruşuram ki, siz darıxmırsınız burada? Deyirlər, yox, darıxmırıq. Çünki doğma Vətən, doğma torpaq bizi çəkir və bu, bir daha xalqımızın nə qədər yüksək mənəvi keyfiyyətlərə malik olduğunu göstərir.

Mən sizi təbrik edirəm. Yenə də deyirəm, artıq iki aydır ki, siz burada mərhələli yollarla məskunlaşırsınız, dekabrın 13-dən başlayaraq bu günə qədər. Hələ ki, proses davam edir. Hələ bərpa edilləsi evlər var, onları da bərpa edəcəyik. Burada insanlar rahat, təhlükəsiz və xoşbəxt yaşamalıdırlar. Bunun üçün Azərbaycan dövləti bundan sonra da hər şeyi edəcəkdir. Bir daha sizi təbrik edirəm.

Sakinlər yaradılan şəraitə görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirdilər.

**Sakin:** Xoş gəlmisiniz, möhtərəm Prezident. Mən yazdığım bir şeirlə xalqa fikrimi çatdırmaq istəyirəm, icazə versəniz.

**Prezident İlham Əliyev:** Buyurun.

**Sakin:**

*Ey uca millətim, uca dövlətim,*
*Ucalsın bayrağın uca dağ kimi.*
*Sönməsin ocağın, sönməsin odun,*
*Rəbbin yandırdığı bir çıraq kimi.*
*Açılsın sabahın, gülsün millətin,*
*Qalmasın möhnətin, dərdin, zülmətin.*
*Xalqa məlhəm olsun gücün, qüdrətin,*
*Xəstəyə can verən bir loğman kimi.*
*İlhamam, adına qurbanam özüm,*
*Haqqını itirsəm, kor olsun gözüm,*
*Türkün birliyinə yar olsun sözüm,*
*Torpağa can verən bir bulaq kimi.*

**Prezident İlham Əliyev:** Çox sağ olun.

**Sakin:** Çox sağ olun. Yenə minnətdarıq. Çox sağ olun, hər birimiz minnətdarıq Sizə.

**Prezident İlham Əliyev:** Oğlunuz şəhid olub?

**Qadın sakin**: 1992-ci ildə.

**Prezident İlham Əliyev:** Allah rəhmət eləsin.

**Qadın sakin**: Bir şəhid ailəsi kimi sənə təşəkkürümü bildirirəm. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Allah bütün şəhidlərimizə rəhmət eləsin. Həm Birinci Qarabağ müharibəsi şəhidlərinin, həm də ki, Vətən müharibəsi şəhidlərinin qanını biz döyüş meydanında aldıq, onların qisasını aldıq və ədaləti bərpa etdik. Onların xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq.

**Qadın sakin**: Onun qəbrini ki, gördüm, çox sağ olun. Nənən sənə qurban olsun.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Kişi sakin:** Möhtərəm cənab Prezident, cənab Ali Baş Komandan, Siz Ballıca kəndinə xoş gəlmisiniz. Cənab Prezident, ermənilərin ən böyük terror dəstələri Ballıca kəndində məskunlaşmış və buradan öz çirkin əməllərini həyata keçirməyə çalışmışlar. Bu gün Bakı həbsxanalarında özlərini quzu kimi aparan erməni cəlladları, sözün həqiqi mənasında, xalq arasında deyildiyi kimi, Ballıca kəndində at oynatmışlar. Sizin böyük siyasətinizin nəticəsində xalqımız, camaatımız bu gün Sizinlə görüşə Ballıca kəndinə gəlmişdir və bu görüş bizim arzuladığımız görüşdür. Bu görüşə görə Sizə minnətdarlığımızı, təşəkkürümü bildirirəm.

Cənab Prezident, Qarabağla bağlı Böyük Qayıdışa dair Dövlət Proqramı uğurla həyata keçirilir, Sizin göstərişinizlə Ballıca kəndində həyat qaynayır. Necə deyərlər, biz vətənimizə, torpağımıza gələndən sonra ilk olaraq şəhidlərimizin döyüşdüyü yerləri, əsgərlərimizin erməni quldurlarına qan uddurduqları yerləri və böyüklərimizin, ulularımızın uyuduğu məkanları ziyarət etmişik. Bu ziyarətləri bizə Siz, cənab İlham Əliyev bəxş etmişdir. Ona görə biz Sizə öz təşəkkürümüzü bildiririk. Sizə sonsuza qədər təşəkkür etsəm azdır. Əllərimi uca göylərə açaraq söyləyirəm: "Tanrı Sizi qorusun!". "Tanrı ailənizi qorusun!". "Tanrı xalqımızı qorusun!".

**Sakinlər:** Amin!

**Sakin:** Sağ olun. Nə yaxşı ki, Siz varsınız. Sizə bizim böyük ehtiyacımız vardır. Sağ olun, təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Sağ olun, təbrik edirəm. Necə yaşayırsınız burada? Hər şey yaxşıdır?

**Sakinlər:** Xoş gəlmisiniz. Allah Sizi qorusun. Ali Baş Komandan, "dəmir yumruq" buradadır.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Maşallah sənin də yumruğun yaxşıdır.

**Kişi sakin:** Cənab Prezident, çox sağ olun. Var olun ki, o əmri verdiniz, o "dəmir yumruq"la onların başını əzdik. Minnətdarıq Sizə.

**Prezident İlham Əliyev:** Sağ olun. Sizə minnətdaram. Sizin kimi oğullar hesabına torpaqlarımızı düşməndən azad etdik.

**Kişi sakin:** Borcumuzdur, cənab Prezident.

**Qadın sakin:** Hörmətli Prezidentimiz, Siz Ballıca kəndinə çox xoş gəlmisiniz. Allah Sizi qorusun, Allah Ordumuzu qorusun, Allah şəhidlərimizə də rəhmət eləsin, qazilərimizə cansağlığı versin. Bugünkü günü bizə yaşatdığınız üçün Sizə çox-çox təşəkkürümü bildirirəm. Allah sizləri qorusun.

**Prezident İlham Əliyev:** Sağ olun, sizi bir daha təbrik edirəm.

***

Sonra xatirə şəkli çəkdirildi.

***

**Prezident İlham Əliyev:** Qarabağın torpağı bütövlükdə hər yerdə yaxşıdır. Buradan yaxşı məhsul götürmək olar. O vaxt – sovet dövründə burada camaat daha çox maldarlıqla məşğul idi. İndi necə, maldarlıq var?

**Sakin**: Gətirir özü ilə, olanlar var.

**Prezident İlham Əliyev:** Bəs əkinçilik necə?

**Sakin**: Əkinçilik də yavaş-yavaş başlayır.

**Prezident İlham Əliyev**: Hər halda həyətyanı sahələrdə yəqin ki, bostan da əkilir?

**Sakin:** Əkirik. Yararlı torpaqdır, çox gözəl torpaqdır.

**Prezident İlham Əliyev:** Buradan bol məhsul götürmək olar.

**Sakin**: Bəli, çalışan götürər.

**Prezident İlham Əliyev:** İşləmək lazımdır.

**Sakin**: Xanın bağlarıdır bura. Bizdə "Məhəmməd ağa" deyilən otlaq var. Üç tərəfi Kosalar kəndidir, Ballıcadır. Ermənilər burada çox at oynadıblar. Son soyqırımında aeroport tərəfdən birinci hücuma keçiblər, sonra Kosalar kəndinin sakinləri burada tək qalıb. Xocalı rayonunda ən son Şuşa əhalisi çıxandan bir gün sonra, bax, bu dumanın altında Kosalar əhalisi çıxıbdır.

**Prezident İlham Əliyev:** Doqquzunda?

**Sakin:** Bəli. Buradan üç bulağın suyu gəlir: "Təkqəbir" bulağı, "Sarıtala" bulağı, "Alçalı" bulağı. Bulaq suyudur, götür o çayın suyunu iç. Belə gözəl yerə bizi gətirdiyiniz üçün Sizə nə qədər təşəkkür eləmək olar?! Mən oğlumun adını İlham qoymuşam. İnanın, Allahdan arzu edirəm, bir nəvəm olsun, onun da adını İlham qoyacağam. Dünya tarixində belə bir şey yoxdur, 300 ildən çox, 500 ildən çox bir qarış torpaq geri qaytarılsın. Xalqımız Sizə nə qədər təşəkkür etsə, azdır. Var olun, cənab Prezident.

**Sakin:** Bəli, mən "Qarabağ" şeirinin sonunda İsmayıl qardaşın dediyi kimi yazıram:

*Dünya bu Zəfərə özü mat qalıb,*
*Əyrisi lal olub, düzü mat qalıb,*
*Əbədi, silinməz bir hikmət qalıb,*
*Azərbaycandır deyən sözüm Qarabağ,*
*Sənə qurban olum, özüm Qarabağ.*

**Sakinlər:** Yaşa, cənab Prezidentimiz! Var olun, Prezidentimiz.

**Prezident İlham Əliyev:** Xoşbəxt yaşayın.

**Sakinlər:** Var olun, Allah qorusun!

**AZƏRTAC**

# Azərbaycan Prezidenti Pakistanla əməkdaşlığı yüksək qiymətləndirib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Pakistan İslam Respublikasının Senatının sədri Seyid Yusuf Rza Gilanini qəbul edib.**

Xəbər verir ki, Seyid Yusuf Rza Gilani Pakistan İslam Respublikasının Prezidenti Asif Əli Zərdari və Baş naziri Məhəmməd Şahbaz Şərifin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Pakistanın Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

Qonaq Bakıda COP29-un uğurla keçirilməsi münasibətilə bir daha təbriklərini çatdırdı.

Dövlətimizin başçısı Pakistanın Baş nazirinin COP29-da iştirakını məmnunluqla xatırlayaraq bunu yüksək qiymətləndirdi.

Görüşdə Azərbaycan ilə Pakistan arasında iqtisadi-ticari, energetika və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı, uğurlu hərbi əməkdaşlığın həyata keçirildiyi vurğulandı. Eyni zamanda, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində bir-birini dəstəkləməsindən məmnunluq ifadə olundu, parlamentlərimiz arasındakı əlaqələrin və hökumətlərarası komissiyanın işinin əhəmiyyəti qeyd edildi.

Azərbaycan ilə Pakistan arasında əlaqələrin Azərbaycan–Türkiyə–Pakistan üçtərəfli əməkdaşlıq formatında inkişafı və bu formatda üçtərəfli görüşlərin əhəmiyyətinə toxunuldu.

Qonaq dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

# İndoneziya ilə əlaqələrin perspektivləri müzakirə edilib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da İndoneziya Respublikası Nümayəndələr Palatasının sədri Puan Maharanini qəbul edib.**

Söhbət zamanı Bakıda keçirilən Asiya Parlament Assambleyasının "Asiyada çoxtərəfli əməkdaşlığın gücləndirilməsində parlament diplomatiyasının rolu" mövzusuna həsr edilmiş 15-ci plenar sessiyasının önəminə toxunuldu, bu tədbirin parlamentlərarası əməkdaşlığın gücləndirilməsi işinə töhfə verəcəyinə ümidvarlıq ifadə olundu.

Görüşdə Azərbaycanla İndoneziya arasında əlaqələrin perspektivləri, parlamentlərimiz arasında əməkdaşlıq məsələləri barədə fikir mübadiləsi aparıldı.

Qonaq dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

**AZƏRTAC**

# Belarusla çoxtərəfli münasibətlər məmnunluq doğurur

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Belarus Respublikası Milli Assambleyası Respublika Şurasının sədri Natalya Koçanovanı qəbul edib.**



Natalya Koçanova Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Aleksandr Lukaşenkoya çatdırmağı xahiş etdi.

Söhbət zamanı ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrimizin inkişaf etdiyi qeyd olundu. Keçən il Belarus Prezidentinin ölkəmizə dövlət səfəri məmnunluqla xatırlanaraq, onun münasibətlərimizin inkişafında rolu vurğulandı.

Ölkəmizə ilk dəfə səfər etdiyini deyən Natalya Koçanova Bakıda gördüyü inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını dedi.

Görüşdə ölkələrimizin parlamentləri arasında əlaqələrin uğurla inkişaf etdiyi qeyd olundu, Bakıda Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyasının keçirilməsinin önəminə toxunuldu.

Qonaq dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

# Ağdaş rayonunun Davudlu–Binələr–Güvəkənd–Əmirarx–Qaradeyin–Eymur–Ərəbşəki–Ağcaqovaq avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Doqquz min nəfər əhalinin yaşadığı 8 yaşayış məntəqəsini birləşdirən Davudlu–Binələr–Güvəkənd–Əmirarx–Qaradeyin–Eymur–Ərəbşəki–Ağcaqovaq avtomobil yolunun əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 445 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.19.21-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 1,5 milyon (bir milyon beş yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun əsaslı təmirinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 fevral 2025-ci il**

# Hikmət Hacıyevin Netanyahu ilə görüşü

**İsrailin Baş naziri Benyamin Netanyahu Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevi qəbul edib.**



Bu barədə məlumatı Azərbaycanın İsraildəki Səfirliyi öz "X" hesabında paylaşıb.

Qeyd edilib ki, tərəflər Azərbaycan və İsrail arasında ikitərəfli əməkdaşlıq məsələlərini, həmçinin regional hadisələri müzakirə ediblər.

"Hikmət Hacıyev Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Baş nazir Benyamin Netanyahuya çatdırıb. Baş nazir təşəkkürünü bildirib və onun salamlarını Prezident İlham Əliyevə çatdırmağı xahiş edib", - paylaşımda vurğulanıb.

# Özbəkistan Senatının sədri Milli Məclisdə



**Fevralın 19-da Milli Məclisin sədri Sahibə Qafarova Bakıda keçirilən Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyasında iştirak etmək üçün Azərbaycanda səfərdə olan Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva ilə görüşüb.**

Görüşdə Sahibə Qafarova Azərbaycanın və Özbəkistanın dost, qardaş ölkə olduğunu qeyd edərək deyib: "Bizi ümumi tarixi, mədəni dəyərlər birləşdirir. İki ölkə arasında münasibətlər bu gün Azərbaycan Prezidenti İlham Əliyevin və Özbəkistan dövlətinin başçısı Şavkat Mirziyoyevin rəhbərliyi ilə uğurla inkişaf etdirilir. Ölkələrimiz arasındakı bu yaxınlıq siyasi, iqtisadi, mədəni və digər sahələrdə də özünü göstərir".

S.Qafarova Özbəkistanın Azərbaycanın işğaldan azad olunmuş Füzuli rayonunda məktəb tikintisi həyata keçirməsinin ölkəmizdə yüksək qiymətləndirildiyini və bunun qardaşlıq münasibətinin təzahürü olduğunu diqqətə çatdırıb. O, qanunverici orqanlar arasında da əməkdaşlığın uğurla inkişaf etməsindən məmnunluqla danışıb.

Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva APA-nın sessiyasına dəvətə görə təşəkkürünü bildirib. Qonaq bildirib ki, iki ölkə başçısının yaxın şəxsi münasibətləri parlamentlərimizə də sirayət edir. Dil və mədəniyyət yaxınlığımız isə əməkdaşlığımızın daha da dərinləşməsinə möhkəm zəmin yaradır.

***XQ***

# BƏƏ Prezidenti "Azərsilah"ın məhsulları ilə tanış olub

**Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan Əbu-Dabi şəhərində keçirilən "IDEX 2025" Beynəlxalq Müdafiə Sərgisində Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin tabeliyində olan "Azərsilah" Müdafiə Sənayesi Holdinqi Qapalı Səhmdar Cəmiyyətinin stendini ziyarət edib.**



Müdafiə sənayesi naziri Vüqar Mustafayev BƏƏ-nin Prezidentinə sərgidə nümayiş olunan Azərbaycanın istehsal etdiyi hərbi məhsullar haqqında ətraflı məlumat verib. Dövlət başçısı "IDEX 2025" Beynəlxalq Müdafiə Sərgisində fəal iştirak edən Azərbaycanın nümayəndə heyətinə uğurlar arzulayıb.

Daha sonra İtaliyanın müdafiə naziri Quido Krosetto Azərbaycan istehsalı olan müdafiə təyinatlı məhsullara baxıb. Nazirə yerli məhsullar haqqında ətraflı məlumat verilib.

Qeyd edək ki, bu gün sərgi çərçivəsində nazir V.Mustafayev BƏƏ-nin müdafiə işləri üzrə dövlət naziri Məhəmməd bin Mübarək Fadel Əl Mazrouei, "EDGE Group" şirkətinin İdarə Heyətinin sədri Faysal Əl Bannai, "Tawazun" şurasının baş katibi Nasser Al Nuaimi və Çin Xalq Respublikasinin "CETC International" şirkətinin rəhbərliyi ilə görüşüb. Görüşlərdə müdafiə sənayesi sahəsində əməkdaşlıq imkanları müzakirə edilib, maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***XQ***

# Avropa İttifaqının “müşahidə” tərəfkeşliyi

*Markus Ritterin erməni uşaqlarının yadına saldıqları*



**ABŞ-ın yeni administrasiyasının əlini “Qoca qitə”nin üzərindən götürməsi səbəbindən Avropada ağlaşma kampaniyasının vüsət aldığı bir vaxtda Aİ-nin Azərbaycan–Ermənistan şərti sərhədinin Hayastan tərəfində keşik çəkən mülki müşahidə missiyasının rəhbəri Markus Ritter “Armenpress”ə müsahibə verərək qurumun faydalı olduğundan dəm vurub. Məşhur el məsəlimizdə deyildiyi kimi, “keçi can hayındadır, qəssab piy axtarır”.**

Missiyanın mandatının uzadılmasından, onun gələcək işlərindən, Ermənistan–Azərbaycan sərhədindəki vəziyyətdən söz açan cənab Ritter deyib ki, 2023-cü ilin fevral ayından, yəni müşahidəçilərin fəaliyyətə başlamalarından sonra Ermənistanla Azərbaycan arasında sərhəd insidentlərinin sayı xeyli azalıb. Əlbəttə, insidentlərin sayı azalıb. Ancaq bu, ona görə deyil ki, Aİ-nin missiyası səmərəlidir. Ortada sadə reallıq var – Ermənistan Azərbaycandan daha çox qorxmağa başlayıb.

Rəsmi İrəvan görüb ki, sərhəddə eskalasiya mühiti formalaşdırmaqla, nəyəsə nail olmaq mümkünsüzdür. Özü də bunu yalnız Ermənistan rəhbərliyi deyil, onun xaricdəki havadarları da anlayıblar. Əlqərəz, durum sözügedən missiyanın işinə məsuliyyətli yanaşmasından qaynaqlanmır. Müşahidəçilərin fəaliyyətinə gəlincə, əldə binokl pikap avtomobillərlə o yan-bu yana şütüyüb yol ölçmək iş sayıla bilməz.

Bəli, Ermənistan 44 günlük müharibədən sonra çox çalışdı ki, Azərbaycana qarşı nə isə etsin, ancaq istəyinə çata bilmədi və hazırda sülh danışıqlarında müəyyən irəliləyiş var. Bunu Ritter də vurğulayıb. Yəni o, etiraf edib ki, sərhəd insidentlərinin sayının azalması təkcə missiyanın xidməti deyil, buna Azərbaycanla Ermənistan arasında siyasi vəziyyət, danışıqlar da öz töhfəsini verib. Ancaq Ritterin “əminəm, mövcudluğumuzla biz ümumi prosesi dəstəkləyirik” şəklində fikir bildirməsi son dərəcə gülüncdür. Axı müşahidəçilərin sülhlə yaxından–uzaqdan hansısa əlaqələri yoxdur.

M.Ritterin sözlərinə görə, Aİ müşahidəçilərinin mandatının uzadılmasına dair qərar göstərir ki, qurum özünün Ermənistandakı monitorinq missiyasını Cənubi Qafqazda sabitliyin təşviqi üçün faydalı alət kimi görür. Bu fikir də gülüncdür. Çünki “monitorinqçilər” mahiyyətcə Ermənistanı qorumaq barədə düşünmürlər. Onlar yağışdan sonrakı göbələkləri xatırladırlar və Aİ-nin, bütövlükdə kollektiv Qərbin regionda möhkəmlənmək avantürasının icraçıları qismində çıxış edirlər. Alət məsələsinə gəlincə, özünü bu ampluada təsdiqləməyə çalışan Ermənistandır. Ona görə Ritter, bir növ, minnət qoyurmuş kimi deyir ki, rəhbərlik etdiyi missiya bölgəyə rəsmi İrəvanın dəvəti ilə gəlib. Nəzərə alaq ki, dəvət ritorikasının özü də gülüncdür...

Azərbaycan həmişə Aİ-nin Ermənistandakı monitorinq missiyasının fəaliyyətindən narazılığını bildirib, təsisatın İrəvanla Bakı arasında nizamlanma prosesinə töhfə vermədiyini bəyan edib və onu sərhədyanı ərazilərdə kəşfiyyat işləri aparmaqda suçlayıb. Ritterin buna, xüsusən, müşahidəçilərin kəşfiyyat işləri aparmalarına münasibəti aşkar həyasızlıq motivlərinə söykənib. O bildirib ki, rəhbəri olduğu təsisat təkcə Azərbaycan yox, eyni zamanda, Ermənistan tərəfin də müşahidəsini aparır və Brüsselə tam vəziyyəti, baş verən hər şeyi çatdırır.

Bir təzada, daha doğrusu, yarımçıq dünyagörüşünün məhsulu sayılacaq söz oyununa diqqət yetirək. Aİ müşahidəçilərinin, guya, şəffaf şəkildə fəaliyyət göstərdiklərini deyən Ritter onu da bildirib ki, onlar münaqişə zonasına beynəlxalq baxış gətirir və bu, hər iki tərəf üçün əlverişsizdir. O zaman meydana sual çıxır: əlverişsiz müşahidəçilərin ərazidə nə işləri var? Amma Ritter suala cavab tapır. Onun qurduğu əndərəbadi cümlədən gəlinən nəticə budur ki, Ermənistan və Azərbaycan beynəlxalq ictimaiyyətin, xüsusən Brüsselin sərhəddə baş verənlərdən xəbərdar olduğunu dərk etməlidir. Tərəflər onu da anlamalıdırlar ki, xəbərsiz heç nəyə başlaya bilməyəcəklər. Heç dəxli var?

Yaxşı, tutalım, Brüssel Ermənistanın sərhədə qoşun yığdığını bildi. Onun duruma qarşı çıxacaq hansısa mexanizmi var? Hələ Azərbaycana təsirdən heç danışmırıq. Çünki, bu, tamamilə nonsensdir. Əlqərəz, məsələnin qoyuluşu Ritterin dilə gətirdiyi kimi deyil və bunu onun özü də gözəl anlayır. Sadəcə, o, erməni havadarlığına hansısa formada haqq qazandırmalıdır və mövcud istiqamətdə aciz cəhdlərə baş vurur. Başı, obrazlı desək, sərhəd dirəklərinə dəyib partlamasa, yaxşıdır.

Sərhəd dirəklərindən söz düşmüşkən, Ermənistanın baş naziri Nikol Paşinyan bir müddət əvvəl keçirdiyi mətbuat konfransında bildirmişdi ki, Aİ-nin müşahidə missiyası sərhədin demarkasiya və delimitasiya işləri aparılmış hissələrində fəaliyyət göstərməyəcək. Ritter də bunu təsdiqləyib. Ancaq bir qədər fərqli formada: “Artıq sərhəd bölgəsində olmağımıza ehtiyac yoxdur. Lakin, bu, o demək deyil ki, biz kəndlərə, fermalara baş çəkməyə, sərhəd daxilində insanlarla söhbətə davam etməyəcəyik. Əgər Ermənistan və Azərbaycan razılaşsalar ki, biz onsuz da dəqiq demarkasiya olunmuş sərhəd bölgələrində birbaşa patrul xidməti aparmamalıyıq, biz bunda problem görmürük”.

Azərbaycan lap əvvəldən Aİ-nin missiyasına ehtiyacın duyulmadığını bəyan edib və dəfələrlə də müşahidəçilərin fəaliyyətindən narazılığını bildirib. Digər yandan, Paşinyanın diqqətə çatdırdığımız fikirləri var. Ritter isə deyir ki, müşahidəçilər sərhədin demarkasiya olunmuş hissələrində əhali ilə söhbətlər aparacaq və sair. Görəsən niyə? Bir halda ki, iki dövlət məsələni həll edib, əhali ilə söhbətə, təmasa, fermalara baş çəkməyə nə hacət? Aİ-nin təmsilçiləri müşahidə aparırlar, yoxsa mal-qara üçün aqronomluq edirlər? Bəlkə toyuq oğurluğuna girişmək fikrindədirlər? Hələ müşahidəçilərin mənasız işlər görməmələri üçün Azərbaycan və Ermənistan birgə müraciət etməli imiş! Üstəlik, Ritter fikirləri ilə iki dövlətin apardığı delimitasiya və demarkasiya işlərinin legitimliyini şübhələndirir. Həyasızlıq olar, ta bu qədər də yox!

Ritterin bildirdiyinə görə, “hər iki tərəf öz mövqelərini gücləndirir. Beləliklə, hər an pisə hazırlaşmağa davam edirlər. Bu, göz qabağındadır. Lakin hazırda biz heç bir gərginlik görmürük və bu, artıq bir aydır davam edir. Ona görə biz regionun düzgün yolda olduğuna tam əminik. Amma həmişə deyirik: ən pisə və ən yaxşıya hazır olun. Bizə elə gəlir ki, hər iki tərəf bu məsləhətə əməl edir”.

Əvvəla, Aİ missiyasının Azərbaycana hansısa məsləhət vermək səlahiyyəti yoxdur, ola bilməz. İkincisi, hər iki tərəf sərhədə qüvvə toplayırsa, müşahidəçilər buna qarşı çıxa bilirlərmi? Aydındır ki, yox. Üçüncüsü, ən pisə və ən yaxşıya hazır olmaq nə deməkdir? Deyəsən, Ritter danışığını bilmir. Elə isə onun müsahibəsindəki daha bir gülməli, gülməli olduqğu qədər də acınacaqlı məqama nəzər salaq.

M.Ritter rəhbərlik etdiyi missiyanın gələcək fəaliyyətindən, məramından söz açarkən bildirib ki, müşahidəçilər keçən ilin dekabrından sərhəd kəndlərində məktəblərə baş çəkərək şagirdlərlə söhbətlər aparır, onlara nə işlə məşğul olduqlarını, Avropa İttifaqının hansı məqsəd daşıdğını izah edirlər. Bir sözlə, o, Aİ-nin missionerlik fəaliyyəti gerçəkləşdirdiyini vurğulayıb. Hələ bunu da deyib: “Biz bu fəaliyyəti genişləndirmək istəyirik. Gələcəkdə təkcə məktəblərə baş çəkmək deyil, həm də işimizi Avropa ideyasını təbliğ etmək üzərində quracağıq. Hər kəsə bildirmək istəyirik ki, biz casusluq, kəşfiyyat fəaliyyəti və ya başqa bir şeylə məşğul deyilik. Biz bu bölgəyə sabitlik gətirməyə kömək göstərmək istəyən mülki, silahsız missiyayıq”.

Göründüyü kimi, M.Ritter missiyası üçün əlavə fəaliyyət qondaracaq qədər həyasızdır. Onun fikirləri daha bir məşhur “qarğa, məndə qoz var” el deyimini xatırladır. Müşahidəçilər məktəblərə baş çəkib şagirdlərə özlərinin nə işlə məşğul olduqlarını bildirirlərsə, deməli, erməni uşaqlarının şüurlarına sərhəd zonasının gərgin olduğuna dair təsəvvür yeridirlər. Ola bilər, sərhədin o tərəfində, guya, zombilərin yaşadıqlarını da bildirirlər. Onlardan nə desən çıxar. Dolayısı ilə Aİ-nin missiyasının insanlara qorxu aşıladığını söyləmək mümkündür. Bir halda ki, missiya üzvləri bölgədədirlər, sakinlərdə təhlükənin hələ sovuşmadığı qənaəti qala bilər. Halbuki, dövlətlərarası delimitasiya və demarkasiya işləri aparılıb və prinsipcə, heç bir qorxuya və təşvişə yer olmamalıdır.

Sonda əvvəldə haqqında söz açdığımız məqama qayıdaraq bir daha deyək ki, ABŞ əlini Avropanın üzərindən çəkib və bu, “Köhnə qitə”də tragikomik vəziyyət yaradıb. Birləşmiş Ştatların hazırkı administrasiyasının təmsilçilərinin irəli sürdükləri tezislər Avropanın təhlükəsizlik arxitekturasının və bu arxitekturanı şərtləndirən hərəkət və davranışların kökündən yanlışlığını ortaya qoymaqdadır. Heç şübhəsiz, növbə Aİ-nin timsalında Avropa siyasi industriyasının Cənubi Qafqaz yanaşmasındakı qələtlərinə də gələcək. O zaman Ermənistanda sərhəd monitorinqi adı ilə gerçəkləşdirilmiş fəaliyyətin səmərəsizliyi və faydasızlığı, məsələnin təhlükəsizliyin təminatı deyil, aşkar tərəfkeşliklə bağlılığı daha yağlı boyalarla təqdim olunacaq.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Avropanın miskin durumuna ağlamaq...

**(əvvəli 1-ci səhifədə)**

Əlbəttə, Vensin bu fikirlərindən sonra K.Housgen necə ağlamasın? Necə deməsin ki, 2025-ci ildə keçirilən forum Avropanın kabusuna çevrilib? Ancaq cənab Housgenin fikrini əsaslandırmaq üçün gətirdiyi arqumentlər bir o qədər yerinə düşmür. Məsələn, o deyib ki, builki MTK aydınlaşdırıcı xarakter daşıdı. Çünki C.Vensin çıxışından sonra Birləşmiş Ştatlar Prezidenti Donald Trampın rəhbərliyi altındakı hazırkı Amerikanın başqa planetdə yaşadığı qənaətinə gəlib: “Biz onu da müşahidə etdik ki, hətta, respublikaçı senatorlar da prezidentlərindən qorxduqları üçün ictimaiyyət qarşısında çıxışlarında çox diqqətli olurlar”.

Sual olunur: Tramp Amerikası başqa planetdə yaşayırsa, Housgen nə üçün ağlayır? Bəlkə o, Avropanın özünün müstəqil şəkildə yaşaya bilməməsi səbəbindən belə kövrəlib? Sualımız ritorikdir, cavab dır. Direniş isə direniş deyil, böyük ölçüdə “oyun” idi. Cənab Vens, əslində, MTK-dakı çıxışında bunu dedi, K.Housgen isə uydurulmuş “müqəddəsliyin ölməsi” üçün ağladı.

Bəli, K.Housgen bildirib ki, Avropa Ukrayna üzrə mümkün sülh danışıqları baş verəcəyi təqdirdə birləşməlidir. “Biz daha çox güc nümayiş etdirməliyik”, – deyən Kristof onu da əlavə edir ki, Avropa təkcə Ukrayna ilə bağlı danışıqlar masasına oturmamalı, eyni zamanda, onunla əlaqədar təhlükəsizlik planını hazırlamalıdır. Görəsən, söhbət hansı plandan gedir? Ümumən, Avropanın Fransa prezidenti Emmanuel Makron başda olmaqla, bəzi liderləri elə danışırlar ki, sanki Ukrayna müharibəsi qitənin təhlükəsizliyini təmin etmək üçün idi. Görünür, uydurduqları saxta müqəddəsliyə əməlli-başlı inanıblar. O zaman sual olunur: müharibəyədək Avropa təhlükəsiz deyildi? Bəlkə Rusiya



məlumdur. Housgen Amerikasız Avropanın gününə ağlamaqla məşğuldur. Çünki durum acınacaqlıdır. Vensə gəldikdə, əslində, onun demək istədiyi başqa idi. ABŞ-ın vitse-prezidenti, faktiki olaraq, bildirdi ki, Avropa Birləşmiş Ştatların qucağında otura-otura özü üçün müqəddəslik uydurmamalıdır. Əgər “köhnə qitə” nəyisə müqəddəs hesab edirsə, buyurub Amerika olmadan məqsədinə doğru getməlidir. Məqsəd barədə isə söz açacağıq.

Bəli, Vens onu da demək istəmişdi ki, Avropanın İkinci Dünya müharibəsindən sonra ABŞ-ın hesabına kef eləmək dövrü geridə qalıb. Yəni Amerika “Köhnə qitə”yə olan borcunu artıqlaması ilə ödəyib. Borc o idi ki, Avropa Hitler Almaniyası ilə müharibə meydanına çevrilmişdi, ABŞ isə hərbi əməliyyatlardan kənarda qalmışdı. Əlbəttə, Vens deyə bilməz ki, Amerikaya Avropa SSRİ qarşısında duruş gətirməsi üçün lazım idi. Yəni Birləşmiş Ştatlar əlini cibinə elə-belədən salmamış, “qırmızı təhlükə”yə qarşı sipər formalaşdırmışdı.

Ancaq Prezident Tramp indi deyir ki, ABŞ pulu ona görə xərcləmir ki, avropalılar kef içində yaşasınlar. Ən əsası isə Vaşinqton hazırda Birləşmiş Ştatların pulu ilə Rusiyaya qarşı döyüşməyi yolverilməz saydığını açıqlayır. Təxminən belə: Rusiya ilə mübarizə aparmaq istəyirsinizsə, bunu özünüz edəcəksiniz, kəmərləri bərkitmə zamanı çatıb. Avropada isə obrazlı desək, belinə kəmər bağlayanlar, demək olar, qalmayıb. “Köhnə qitə” Tramp administrasiyasının təlqin etdiyi dəyərlərdən uzaq durumdadır. Dəyərlərdən uzaq düşmüş Avropanın uydurduğu müqəddəslik isə Ukraynadır.

2022-ci ildən bu yana Ukrayna böhranı – Rusiyaya qarşı müharibə gedir. Doğrudur, Tramp bu müharibəni özündən əvvəlki Co Bayden administrasiyasının da fatal səhvi adlandırır. Amma sual yaranır: Tutalım, Baydenin ağlı özündə deyildi, bəs Avropaya nə olmuşdu ki, Rusiyaya qarşı cəbhə açırdı? Nə üçün Avropa Birləşmiş Ştatların sabiq hakimiyyətin dirijor çubuğu ilə oturub-dururdu? Əlbəttə, Avropanın başqa çıxış yolu yox idi. Onun özü üçün Rusiyaya qarşı müharibə müqəddəsliyi uydurması labüd prosesə çevrilmişdi. Ancaq zəiflik nöqsana haqq qazandırmır.

Bəli, Avropanın yol verdiyi ən böyük nöqsan Bayden administrasiyasının qızışdırdığı Rusiya – Ukrayna müharibəsində yer almaq idi. Ancaq məsələ təkcə Baydendə də deyil. Çünki “soyuq müharibə” başa çatandan və SSRİ süquta uğrayandan sonra kollektiv Qərbin başlıca hədəfi Rusiya olmuşdu. Daha doğrusu, ölkəni parçalamaq. Avropa da böyük həvəslə bu oyunda yer almışdı. Ukrayna böhranına gəldikdə, o, “köhnə qitə”nin anti-Rusiya köklənişinin kulminasiyasına çevrildi. Bir qədər də konkret ifadə etsək, yağ-bal içində yaşayan və daim Amerikanın əlinə baxan Avropa hesab etmişdi ki, Rusiyaya qarşı direniş göstərmək komfortlu yaşayışın mükafatı qitəni təhdid edirdi? Bunların heç biri yox idi. Rusiya da böyük ölçüdə öz qınına çəkilmişdi.

Ümumən, 1998-ci ildən bəri Moskva bəyan edirdi ki, Qərb onun sərhədlərinə doğru yaxınlaşmasın. Amma buna məhəl qoyulmurdu. Məhəl qoyulmur və Qərb eyni klişeləri təkrarlayıb dururdu – Rusiya avtoritardır, tirandır, anti-demokratikdir. Təzada baxın, bu gün Vens bildirir ki, “Köhnə qitə” demokratik dəyərlərdən uzaq düşüb, Avropada söz azadlığı boğulur. Deməli, anti-Rusiya köklənişinin motivlərində də saxtakarlıq olub. Nəzərə alaq ki, saxtakarlıq ümumən Avropa düşüncə tərzinin əsasını təşkil edib. K.Housgen, əslində, buna görə ağlamalıdır. Ancaq onun göz yaşlarına qərq olmasının başqa səbəbi də var.

Anti-Rusiya ritorikasının episentrində dayanmış Avropa çıxılmaz durumdadır. Qitənin liderləri düşünürlər ki, Vladimir Putin Rusiyası onlara Ukrayna müharibəsi fonunda çıxardıqları oyunları bağışlamayacaq. Bir halda ki, ABŞ müharibəyə dəstəyini dayandırır, o zaman Avropa, faktiki olaraq, Rusiya ilə baş-başa qalır. Özü də müharibədən, demək olar, qalib çıxmış, üç il ərzində çəkdiyi əziyyətlərə görə əsəbi halda olan Rusiya ilə. Deməli, K.Housgen bilir nə üçün göz yaşı tökmək lazımdır.

Əlbəttə, Rusiya – Ukrayna müharibəsinin bundan sonra hansı şəkil alacağını, Avropanın necə mövqe tutacağını birmənalı şəkildə demək çətindir. Görünən budur ki, qitə özü ayrılıqda Rusiyaya qarşı direniş göstərmək istəyir. Amma nə ilə? Hansı resursla? Bu kimi suallar, eləcə də Ukraynanın taleyinin necə olacağına dair müəmmalar qalsa da, hesab edirik ki, yaxın vaxtlarda bir çox məsələlərə aydınlıq gələcək.

Ancaq Rusiya və ABŞ nümayəndə heyətləri arasında Səudiyyə Ərəbistanında baş tutan danışıqlardan sonra E.Makron da Kreml rəhbəri ilə görüşmək istədiyini açıqlayıb. Belə qənaətə gəlmək mümkündür ki, Avropa, necə deyərlər, tüpürdüyünü yalamağa hazırlaşır. İndi qitə davada döyülmüş və özünü sındırmaq istəməyən uşağa oxşayır. Uşaq üçün onu döyənlə anlaşmaq hansısa mənada məqbul sayılsa da, Avropanın bu duruma düşməsi çox böyük rəzillik və miskinlikdir.

Sonda deyək ki, bugünkü Avropa öz dəyərlərindən uzaqlaşmış zombilər yığını təsiri bağışlayır. Bu zombilər üçün demokratiya, ikili standartlar məqsədə nail olmaq üçün vasitədir. Nəzərə alaq ki, Azərbaycan da “köhnə qitə”nin bir çox aparıcı ölkələrinin belə yolverilməz münasibəti ilə üzləşib. Bu gün Vensin həmin ölkələrə bildirdiklərini Azərbaycan rəhbərliyi illərdir vurğulayır. Rəsmi Bakı illərdir bəyan edir ki, Avropanın siyasi mərkəzləri demokratiyanı siyasi məqsədlərə çatmaq üçün alətə çeviriblər. Bu da son. Həqiqətən, belə bir sonluğa ağlamaq lazımdır.

***Əvəz RÜSTƏMOV***
***XQ***

# Ədalətli liderlik və geosiyasi sinerji

## *Prezident İlham Əliyevin Çinin CGTN telekanalına müsahibəsinin siyasi-nəzəri təhlili*



III MƏQALƏ

### Lider məsuliyyəti

Çinin CGTN telekanalının jurnalisti Azərbaycan Prezidentinə politoloji aspektdə çox maraqlı konteksti olan belə bir sual ünvanlamışdır: “Deyə bilərəm ki, dünya çox sürətlə dəyişir. Lakin, cənab Prezident, hər dəfə Sizinlə danışanda mənə elə gəlir ki, ölkəniz çox güclü təməl üzərində dayanıb. Mənə maraqlıdır, bu, təkcə özünüz barədə yox, bu gün olan liderlik haqqında nəyi bildirir? Xüsusilə bütün bu dəyişikliklərin baş verdiyi bir vaxtda”.

Sualın məntiqində bir neçə məqam vardır. Birincisi, Çin jurnalisti Azərbaycanın güclü təməl üzərində inkişaf etdiyini qəbul edir. Bu o deməkdir ki, bir sıra qərbli jurnalist və siyasilərdən fərqli olaraq Çində Azərbaycanın müstəqil dövlət kimi identikliyini obyektiv qiymətləndirirlər və hesab edirlər ki, aparılan dövlət quruculuğu siyasəti ölkəni faktiki olaraq möhkəm təməl üzərində perspektivli inkişaf müstəvisinə çıxarmışdır.

İkincisi, sətiraltı çinli jurnalist bu prosesdə Azərbaycanda liderlik ənənəsinin və onun müasir mərhələdə konkret təzahürünün həlledici rol oynadığına inanır.

Üçüncüsü, çinli jurnalist birinci və ikinci məntiqi xüsusiyyətin kəsişməsində Azərbaycanın müstəqil dövlət olaraq fəaliyyətinin qlobal geosiyasi təsirini vurğulayır. Bu bağlılıqda anlamaq istəyir ki, Azərbaycanın əldə etdiyi uğurların qlobal geosiyasi konteksti haqqında Prezident İlham Əliyev nə düşünür. Bunun fonunda isə jurnalistin dünyada ciddi geosiyasi dəyişikliklərin dinamikasının təsirini öyrənmək arzusu vardır.

Bütün bu məqamları və bizim duya bilmədiyimiz digər siyasi-diplomatik özəllikləri anında Prezident İlham Əliyev məharətlə dəyərləndirmişdir. Onu Azərbaycan dövlət başçısının cavabından görmək mümkündür. Prezident İlham Əliyevin cavabı belə olmuşdur: “Liderlik, əlbəttə ki, böyük bir məsuliyyətdir və ən önəmlisi ondan ibarətdir ki, lider həmişə öz xalqına, öz əhalisinə münasibətdə ədalətli olmalıdır. Heç vaxt xalqına yalan danışmamalısan və xalq bunu yüksək qiymətləndirəcək. Bəzən müəyyən siyasi səbəblər üzündən hakimiyyətə can atan liderlər çoxlu vədlər verir və sonra onları yerinə yetirmir və bu da məyusluğa, inamsızlığa gətirib çıxarır. Bu, dünyanın müxtəlif yerlərində siyasi böhrana gətirib çıxarır.

Lakin bizə gəldikdə, iyirmi ildən artıq müddət ərzində mən həmişə Azərbaycan xalqına həqiqəti söyləmişəm. Bu həqiqətin müsbət və ya mənfi olmasından asılı olmayaraq. Həmişə xalqıma biz ədaləti bərpa edəcəyik söyləmişəm və xalqım da mənə inanıb. 17 il hakimiyyətdə olandan sonra biz, nəhayət, vəd etdiklərimizi yerinə yetirdik və suverenliyimizi, ərazi bütövlüyünü və ləyaqətimizi bərpa etdik. Beləliklə, ictimaiyyətin dəstəyini əldə etmək istəyən liderlərə məsləhətim o olardı ki, həmişə həqiqəti söyləyin və beynəlxalq təzyiqdən, beynəlxalq mediadan asılı olmayaraq, haqqınızda nə dediklərindən, sizi necə adlandırdıqlarından, sizi necə təhqir etmələrindən asılı olmayaraq, ölkəniz üçün doğru olanı edin. Beləliklə, siz özünüz və ölkəniz uğur qazanmış olacaqsınız”.

İqtibas müasir tarixi dönəmdə uğurlu liderliyin ölkənin milli maraqları kontekstində əsas məqamlarını dəqiq ifadə etmişdir. Bu baxımdan İlham Əliyevin cavabı müasir liderin uğurlu olmasının qısa manifesti kimi təsəvvür edilə bilər. Vurğulanan bu tezisin siyasi-nəzəri və fəlsəfi izahını verə bilərik.

İlham Əliyev siyasi liderliyin mənəvi-əxlaqi, mədəni və etik aspektini önə çəkir. “Liderlik böyük bir məsuliyyətdir” tezisi bunun əlamətidir. Adətən, müasir dönəmdə liderliyə siyasi, diplomatik və uğurlu nəticə prizmasında baxırlar. İlham Əliyev isə ön plana məsuliyyət məsələsini çıxarır. Burada iki məqam ifadə olunmuşdur. Birincisi, bütövlükdə, Azərbaycanda liderlik ənənəsində etik aspekt, o cümlədən məsuliyyət ciddi qiymətləndirilmişdir. İkincisi, Ulu öndərin siyasi varisi kimi, İlham Əliyev məsələyə Azərbaycanda müasir liderlik təcrübəsinin özəllikləri kontekstində yanaşmışdır.

Məlumdur ki, Heydər Əliyev liderliyi çox böyük məsuliyyət daşımaqla sıx əlaqələndirirdi. Onun fikirlərində bu məqam bir çox kontekstlərdə ifadə olunmuşdur. Heydər Əliyev vurğulayırdı ki, “rəhbərlik etmək üçün gərək mənəvi haqqın olsun”. Ulu öndər mənəvi haqqı isə ölkəyə, dövlətə, xalqa, onun mədəniyyətinə, tarixinə, dilinə, adət-ənənəsinə məsuliyyətli münasibətlə əlaqələndirirdi. Bu bağlılıqda Heydər Əliyevin məşhur kəlamlarından biri belədir: “Böyük siyasəti kiçik hisslərə, xırda mənfəətlərə bağlamaq olmaz”.

Bunlardan başqa, Heydər Əliyev liderin məsuliyyətinin olmadığı halda bütövlükdə dövlət və xalq üçün hansı faciələrin meydana çıxa biləcəyi haqqında da xəbərdarlıq etmişdir. Ulu öndər demişdir: “Böyük siyasətdən bixəbərlərin bu siyasət aləminə atılmaları faciələr doğurur”. Buna görə də liderlər mükəmməl şəxsi keyfiyyətlərə malik olmalıdırlar.

Bütün bunlar sanki Heydər Əliyevin bir maraqlı fikrində yığcam şəkildə öz əksini tapmışdır. Ümummilli lider vurğulamışdır: “Bizim Azərbaycanda kişi sözü çox tutumlu sözdür... Sözün əsl mənasında, “kişi” o deməkdir ki, bu adam sözübütöv adamdır, sözünün sahibidir, kişilərə xas hər cür ləyaqətə, keyfiyyətlərə malikdir, sözü ilə əməli birdir”.

Məsuliyyətli lider həm də ədalətli olmalıdır. Prezident İlham Əliyevin liderlikdə gördüyü başqa bir keyfiyyət bundan ibarətdir. Ümumiyyətlə, ədalətliliyin bütövlükdə Azərbaycan liderlik ənənəsində yeri xüsusidir. Azərbaycan dövlət başçısının ifadə etdiyi fikirlərin prizmasında bunun üzərində bir qədər geniş dayanaq.

### Ədalətli lider

İlham Əliyev müsahibəsində deyir: “Önəmlisi ondan ibarətdir ki, lider həmişə öz xalqına, öz əhalisinə münasibətdə ədalətli olmalıdır”. Liderin (dövlət başçısının) öz xalqına qarşı ədalətli olması qədimdən türk dövlətçiliyində, o cümlədən Azərbaycan dövlətçiliyində ayrıca yer tutmuşdur. Ədalət və hüquq (qanun) türk toplumlarının özünütəşkilinin aparıcı faktorları kimi qəbul edilmişdir. Hətta türk xalqları ədalətli olmayan başçını dərhal devirmişlər. Buna görə də ədalətli olmaq əsrlərlə Azərbaycan dövlətçilik ənənəsinin ana şərtlərindən biri kimi dərk edilmişdir.

Bu qısa tarixi ekskurs Prezident İlham Əliyevin ifadə etdiyi “ədalətli olmağı” müasir şərtlər daxilində politoloji aspektdə tam ehtiva etmir. Çünki Azərbaycan Prezidenti müasir tarixi dönəm üçün xarakterik olan milli-regional-qlobal miqyasların qarşılıqlı əlaqəsində liderin ədalətliliyi məsələsini qoyur. İlham Əliyevin jurnalistə cavabında da bu məqam aparıcı yer tutur. Belə ki, Azərbaycan Prezidenti liderin ədalətliliyini, birincisi, öz xalqına yalan danışmamaqla və verdiyi vədlərə əməl etməklə əlaqələndirir. İkincisi, bu əlamət ayrıca dövlətlərdə özünü göstərsə belə, yekunda bütün dünyanın taleyinə təsir edən faktor ola bilər. Buna görə də İlham Əliyev “bəzən müəyyən siyasi səbəblər üzündən hakimiyyətə can atan liderlər çoxlu vədlər verir və sonra onları yerinə yetirmir və bu da məyusluğa, inamsızlığa gətirib çıxarır. Bu, dünyanın müxtəlif yerlərində siyasi böhrana gətirib çıxarır”– deyir.

Bu məqamda jurnalistin sualda ifadə etdiyi məntiqin, Azərbaycan dövlət başçısının cavabında əksini tapan və ədalətli olmaqla bağlı məntiqinin qarşılıqlı münasibəti aydın olur. Belə alınır ki, əslində, çin jurnalisti İlham Əliyevin məhz ədalətli və məsuliyyətli lider olduğuna əmin imiş. Məhz bu keyfiyyətlərinə görə Azərbaycan dövlət başçısının bütün dünyanın geosiyasi dinamikasına təsir edən addımlar atdığına tam inanır. O cümlədən Çinlə münasibətlərdə İlham Əliyevin son dərəcə uğurlu olması bunun əlamətidir. Buradan geosiyasi sinerji məsələsinə maraqlı məntiqi bir keçid ortaya çıxır.

### Geosiyasi sinerji

Müsahibədə məsələnin məhz bu kontekstdə müzakirə edildiyinə dəlalət edən başlıca fakt Prezident İlham Əliyevin Azərbaycan–Çin münasibətlərində ciddi uğurların əldə edilməsini və faktiki olaraq indi iki ölkənin strateji tərəfdaş səviyyəsində əlaqələr qurmasını xüsusi vurğulaması ilə bağlıdır. Çin telekanalının təmsilçisi İlham Əliyevin bu arqumentləri ilə nəinki razılaşır, hətta özü faktlar gətirir. Deməli, Azərbaycan liderinin Azərbaycan–Çin münasibətləri kontekstində geosiyasi sinerjidən bəhs etməsi tam əsaslıdır və bütün dünya üçün nümunə ola biləcək haldır.

Bu tezisin fonunda Azərbaycan liderinin arqumentlərinə politoloji kontekstdə nəzər salmaq faydalıdır. İlham Əliyev deyir ki, həqiqətin müsbət və ya mənfi olmasından asılı olmayaraq, dövlətə başçılıq etdiyi müddətdə daima Azərbaycan xalqına həqiqəti söyləmişdir. Bunun davamı olaraq Azərbaycan dövlətinin pozulmuş hüququnu və tarixi ədaləti bərpa edəcəyini söyləmişdir. Azərbaycan xalqı liderindən həmişə ədalətli fikir eşitdiyindən onun ikinci vədinə tam inanmışdır. Nəticədə Azərbaycan İlham Əliyevin ldierliyi ilə suverenliyini, ərazi bütövlüyünü və ləyaqətini bərpa etdi.

Bu yolda bir sıra dairələrin qərəzli münasibəti ilə də qarşılaşmaq ola bilər, müəyyən məsuliyyətsiz kəslərin təhqirlərini də eşitmək olar, daha radikal formada, məsələn, sui-qəsdlərə də tuş gəlmək mümkündür, lakin bütün hallarda lider sınmamalı, yoluna davam etməlidir. Azərbaycan Prezidenti inanır ki, yalnız bu halda “siz özünüz və ölkəniz uğur qazanmış olacaqsınız”!

Bütün bunlar rəhbərə ictimaiyyətin tam dəstəyini almağa və liderliyinin inkülivliyini təmin etməyə imkan vermişdir. Nəticədə, dünya İlham Əliyevi ədalətli, dürüst, vədinə əməl edən və uğurlu lider kimi qəbul etmişdir. Bu keyfiyyətlərə malik liderin dövlətlərarası münasibətlərdə də uğurlu olması məntiqidir. Çinlə münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsində əsas rolu İlham Əliyevin vurğuladığımız liderlik keyfiyyətlərinə malik olması oynamışdır!

Deməli, geniş anlamda geosiyasi sinerjini ədalətli, məsuliyyətli və uğurlu lider yarada bilər! Azərbaycan Prezidenti dünyaya bunu sübut etmişdir. Davosdakı müsahibədə də həmin məqamın ayrıca yer alması politologiya üçün qiymətli bilgidir. Politoloqlar liderliyi araşdırarkən həmin yeni xüsusiyyəti də tədqiq etməlidirlər.

Təhlillər göstərir ki, Azərbaycan Prezidenti İlham Əliyevin Davosda verdiyi müsahibə nəzəri və praktiki cəhətdən böyük əhəmiyyəti olan məsələlərin müzakirəsini əhatə edir. Müstəqil dövlətin əsl inklüziv lideri kimi İlham Əliyevin təcrübəsini dünyanın ən güclü dövlətləri belə müxtəlif üsullarla öyrənirlər.

Artıq Azərbaycan dövlət başçısı qlobal miqyasda perspektivli liderlik nümunəsi kontekstində ciddi fəlsəfi, elmi və politoloji maraq doğurur! Bunun, hər şeydən öncə, Azərbaycan dövlətçiliyinin ənənəsi ilə yanaşı, müasir dönəmdə aldığı məzmunu baxımından da elmi və praktiki fəaliyyət üçün əhəmiyyət daşıdığını dərk etməliyik!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**Öncə onu xatırladaq ki, Asiya Parlamentləri Assambleyası (APA) 1999-cu ildə Sülh və Əməkdaşlıq Uğrunda Asiya Parlamentarilərinin Konfransında Banqladeşin təşəbbüsü ilə yaradılmış Sülh Naminə Asiya Parlamentləri Assosiasiyasının varisidir. Yəni 1999-cu ildə yaradılmış assosiasiya 2006-cı ildə assambleyaya çevrilmişdir. APA təsis tarixi yeddi il fərqlə iki tarixdə göstərilən (1999 və 2006-cı illər) azsaylı beynəlxalq təşkilatlardandır. Aşağıda o barədə söz açacağıq. Burada maraqlı məqam odur ki, bu qurum cəmi 27 il fəaliyyət göstərsə də, həm XX, həm də XXI əsrlərin problemləri ilə mübarizə aparmalı olmuşdur.**

43 daimi üvü olan bu qurumun təsiçiləri arasında Çin Xalq Respublikası, Rusiya Federasiyası, Türkiyə Cümhuriyyəti, Hindistan, Pakistan, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri kimi Asiya nəhəngləri də var. Dünən Bakıda fəaliyyətə başlayan sessiyada isə quruma üzv olmayan Belarus parlamenti də müşahidəçi mandatı ilə iştirak edir.

# Bakı daha bir beynəlxalq məclisə ev sahibliyi edir



Azərbaycan Parlamentinə sədrlik qurumun ötən ilin fevralında keçirilmiş sessiyasında Türkiyə Parlamentindən keçmişdir. Bakıda dünən açılışı olmuş və hələ iki gün davam edəcək tədbir haqqında söz açmazdan əvvəl Asiya qanunvericilərinin əsas məram və məqsədləri və qurumun fəaliyyəti barədə bəzi məqamları yada salmaq istərdik.

Bildirilir ki, bu qurumun 2004-cü ildə Pakistanın paytaxtı İslamabadda keçirilən 5-ci sessiyasında Filippinin Asiya Parlament Assambleyasının AŞPA-ya bənzər quruma çevrilməsi ilə bağlı təşəbbüsü təsdiqlənmişdir.

Baş Assambleyanın 2006-cı ilin noyabrında İranda keçirilən 7-ci sessiyasından sonra Tehran Bəyannaməsi qəbul edilmiş və ona əsasən Sülh Naminə Asiya Parlamentləri Assosiasiyası yeni beynəlxalq parlament strukturuna, Asiya Parlament Assambleyasına çevrilmişdir.

Bildirilir ki, bu qurum müasir dövrün aktual problemlərinin həllində, o cümlədən Asiya regionunda sülhün təmin edilməsində üzv dövlətlərin rolunu artırmaqla milli parlamentlərin səylərinin əlaqələndirilməsinə diqqət yetirir. APA Asiyada təhlükəsizliyin və sabitliyin təmin edilməsi üçün parlamentlərarası dialoq və kollektiv strategiyanın hazırlanması istiqamətində fəaliyyət göstərir. Rəsmi dili ingilis dilidir. Bir sıra Asiya ölkələrinin parlamentariləri APA-nın BMT və bəzi regional təşkilatlar, o cümlədən ŞƏT ilə əməkdaşlığının genişləndirilməsinin tərəfdarıdır.

Azərbaycan bu qurumda Milli Məclisin deputatları Rizvan Nəbiyev – nümayəndə heyətinin rəhbəri, İlham Məmmədov – nümayəndə heyəti rəhbərinin müavini, Günay Ağamalı, Aydın Hüseynov və Naqif Həmzəyevlə təmsil olunur. Xatırladaq ki, Rusiya da assambleyada səsvermə hüququna malik beş nümayəndə ilə təmsil olunur.

Ali orqanı hər il çağırılan Baş Assambleyanın sessiyasından ibarət olan qurumun rəhbərliyi sədrdən, sədr müavinindən, İcraiyyə Şurasının üzvlərindən və iştirakçı ölkələrin qanunvericilik orqanlarından üçə qədər parlamentaridən ibarətdir. APA-nın Daimi Katibliyi Tehranda yerləşir.

O ki qaldı Asiya Parlament Assambleyasına sədrliyin Azərbaycana keçməsinə, xatırladaq ki, biz bu estafeti Türkiyə Böyük Millət Məclisindən götürmüşük. Belə ki, ötən il fevralın 22-də Bakıda Asiya Parlament Assambleyasının 14-cü plenar sessiyası keçirilmişdi. “Asiyada dayanıqlı inkişaf naminə regional əməkdaşlığın gücləndirilməsi” mövzusuna həsr olunmuş tədbirdə 40-dək ölkənin parlament nümayəndə heyəti, o cümlədən 10-a yaxın ölkənin spikeri, habelə bir sıra beynəlxalq parlament təşkilatlarının rəhbərləri iştirak edirdilər. Assambleyanın baş katibi Mohammad Reza Majidi öz çıxışında demişdi ki, Asiya Parlament Assambleyasına sədrlik növbəti iki il üçün Türkiyədən Azərbaycana keçir.

Türkiyə Böyük Millət Məclisinin və Asiya Parlament Assambleyanın fəaliyyətdə olan sədri Numan Kurtulmuş Asiya Parlament Assambleyasına sədrliyi Türkiyədən Azərbaycana təhvil vermişdi. Qeyd edilmişdi ki, bu gün humanitar böhranlar, münaqişələr, yoxsulluq, iqlim dəyişikliyi ilə yanaşı, ayrı-seçkilik, irqçilik, ksenofobiya və islamofobiyanın artması kimi aktual problemlər Asiya regionuna da mənfi təsir göstərir. Bütün bu çağırışlar ayrı-ayrılıqda deyil, yalnız kollektiv, birgə səylərlə həll edilə bilər. Bu, bölgəmizdə sülh, təhlükəsizlik, sabitlik və davamlı inkişaf üçün də keçərlidir.

Fevralın 19-da Bakıda Azərbaycanın sədrliyi ilə keçirilən Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyasında 35 nümayəndə heyəti, ümumilikdə 280 nəfərə yaxın nümayəndə iştirak edir. Tədbirdə bir sıra mühüm məsələlərin müzakirəsi nəzərdə tutulur. Bildirilir ki, APA Asiya parlamentlərini birləşdirən mühüm parlament diplomatiyası platforması olmaqla yanaşı, bu cür tədbirlər həm də üzv ölkələrin qanunverici orqanları arasında müzakirələrin və dialoqun inkişafına xidmət edir.

Asiya Parlament Assambleyasının baş katibi Mohammad Reza Majidi Bakıda Azərbaycanın sədrliyi ilə keçirilən APA-nın 15-ci plenar sessiyasının açılış mərasimində deyib ki, “Azərbaycan Asiya Parlament Assambleyasına sədrliyi üzərinə götürməklə güclü əməkdaşlıq nümunəsi nümayiş etdirdi”. Baş katib xatırladıb ki, assambleya qarşıda duran proqramları Azərbaycanın sədrliyi ilə tam yerinə yetirir və yetirəcək: “Biz parlamentlərarası əməkdaşlığı daha da gücləndirməyə çalışırıq. Hazırda sıralarımız da genişlənməkdədir. APA çox vacib parlament platforması olaraq Fələstin məsələsini diqqət mərkəzində saxlayır”.

***İttifaq MİRZƏBƏYLİ***

# “Vətənə bağlı” ömür ekranda

**Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayevə həsr olunan “Vətənə bağlı” sənədli filmin təqdimatı keçirilib.**



Mərasimdə mərkəzin icraçı direktoru Rəvan Həsənov bildirib ki, bu gün Azərbaycanda 50-dən çox müxtəlif xalqın və etnik qrupun nümayəndəsi yaşayır: “Yəhudilər də bütün etnik və dini azlıqlar kimi Azərbaycanda sülh və əmin-amanlıq şəraitində yaşayırlar, yəhudi icmasına qarşı heç bir ayrı-seçkilik yoxdur. Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayevə həsr olunan “Vətənə bağlı” sənədli filmində də Azərbaycandakı multikultural mühit, yəhudilər və onların ölkəmizdəki həyatı lentə alınıb”.

Azərbaycan Televiziya və Radio Verilişləri QSC analitik qrupunun rəhbəri Faiq Hüsiyev, filmin ssenari müəllifi Afaq Vasifqızı və rejissoru Elnurə Kazımova ekran əsərinin ərsəyə gəlməsi və qəhrəmanın ictimai fəaliyyəti barədə söz açıblar.

Filmin nümayişindən sonra Milli Məclisin deputatları Arzu Nağıyev, Ceyhun Məmmədov, Azərbaycan Televiziyasının “Telefilm” studiyasının direktoru rejissor Elçin Quliyev və başqaları dəyərli ekran əsərinin ölkəmizdəki multikultural mühitin kinematoqrafiyada əksi baxımından önəmini qeyd ediblər.

Sonda Milix Yevdayev filmin yaradıcı heyətinə və mərasim iştirakçılarına təşəkkürünü bildirib.

***XQ***

# Azərbaycanın örnək strategiyası

*(əvvəli 1-ci səhifədə)*

Bu, ötən əsrin ümumbəşəri birgəyaşayış prinsipi idi. İndi bəşəriyyətin min illərdir yol getdiyi gəminin səmtini, koordinatını nə onun kapitanı müəyyən edir, nə matroslar, nə də göyərtədəki sərnişinlər, onun sükanı gözəgörünməz qüvvələrin əlində, "onlayn" idarəetmədə, sanki "avtopilot"dadır. Əlbəttə, bu, ilk baxışda belə görünür. Gəmini öz istədikləri marşrut üzrə yönəldənlər pərdə arxasında durub son dayanacağa kimlərlə, hansı yüklə çatacağı anı gözləyirlər. Bu zaman onlar yol boyu qasırğa və fırtınalara qurban gedənlərə məhəl qoymadan növbəti qazanclarını güdürlər. Nə qədər acı olsa da, reallıq bundan ibarətdir.

* * *

Rusiya–Ukrayna müharibəsi XXI əsrin birinci rübünün ən qanlı münaqişələrindən biri sayılır. Şübhəsiz ki, bu, eyni zamanda, qurbanlarının sayına görə İkinci dünya müharibəsindən sonra Avropada yaşanan dəhşətli hərbi savaşdır. Ekspertlərin qənaətinə görə, bu müharibə daha çox Rusiyanın dünyanın "supergücü" statusunu sözdə deyil, əməldə bərpa etmək niyyətindən xəbər verirdi.

Ukraynalı siyasətçi və yazıçı Aleksey Arestoviçin təbirincə desək, bu hərbi toqquşma onun ölkəsini NATO üzvlüyünə aparacaq "giriş bileti" olmalı idi. Avropalılar üçün isə bu münaqişə Rusiyanın ucuz enerji resursları üzərində qurduqları bütün rifah sistemini kobudcasına pozan kabusa çevrildi. Amma burada udan tərəf Birləşmiş Ştatlar oldu. Onun üçün ssenarisini cızdığı bu hərbi qarşıdurma özünün qlobal statusunu gücləndirməyin əlverişli vasitəsinə çevrildi.

İndi ortalıqda Ağ evdəki Demokratlar administrasiyasının körüklədirdiyi və sönməyə qoymadığı, üç il davam edən "xüsusi hərbi əməliyyatlara" son qoymağın yollarını aramaq və hər iki tərəf üçün "uduşlu" final oyununu qurmaq səyləri var. ABŞ-da hakimiyyətə Donald Trampın gəlişi ilə rəsmi Vaşinqton ruslarla danışıqlar masası arxasında oturmağa hazır olduğunu bəyan edərək hərəkətə keçdi.

Bəs, gələcək razılaşmaların mahiyyəti nədən ibarət olacaq? Ukrayna bu sövdələşmədə hansı statusda iştiraka iddia edə bilər? Bu zaman danışıqlarda Rusiya üçün hər hansı tələlərin olub-olmaması da açıq qalmış suallardandır. Danışıqlar masasında hələlik əsas aktor kimi görünməyən Ukrayna, faktiki olaraq, öz taleyinə nəzarət edə bilmir. Əslində, bu, ölkənin üzləşdiyi böyük itkilərdən və dağıntılardan sonra daha dəhşətli diplomatik faciədir.

Sual olunur: Kiyev bu hərbi qarşıdurmadan yayınmaq, yaxud "oyundan" tez çıxmaq fürsətini düzgün dəyərləndirməyi bacardımı? Təəssüf ki, yox!

* * *

Səbəblər müxtəlif olsa da, onların hamısı bir nöqtədə kəsişir. Gözlərimiz önündə oynanılan Ukrayna siyasi "tamaşası" bizə nəyi öyrədir? Olduqca sadə bir həqiqəti – planlarınızı, istəklərinizi reallaşdırmaq, yaxud üstünüzə ayaq açanlara cavab vermək üçün büsbütün kənar dəstəyə arxalanmaq olmaz. Ukrayna hər şeyi Avropanın və ABŞ-ın üzərinə qoyarkən tamamilə unutdu ki, "Qoca qitə"nin özü bu müharibəni uzatmağa qadir müstəqil oyunçu deyil. ABŞ bunu edə bilsə də, onun Ukraynanı və deməli, Avropanı qələbəyə aparıb çıxarmaq kimi bir niyyəti yox idi. Vaşinqtonun məqsədi Avropa qitəsinin əbədi vassal vəziyyətində qalaraq güclənməsinin qarşısını almaqdır.

Müqayisə qüsurlu görünə bilər, amma qarşımızda oxşar vəziyyətlə üzləşmiş Azərbaycan örnəyi var. Hazırda Ukraynanın üzləşdiyi acınacaqlı mənzərəni görəndə 30 illik işğal problemini gücün və praqmatik hesablamaların sayəsində köklü şəkildə həll edən ölkəmizin buna hansı qüvvələrlə kəllə-kəlləyə gələrək nail olduğunu təsəvvürümüzə gətirməyə belə çətinlik çəkirik. Azərbaycan həm döyüş meydanında, həm də diplomatiya cəbhəsində zəfəri nəyin hesabına qazandı? Dünyanın nəhəng hərbi-sənaye komplekslərinə malik "böyük güclər"dən bərabər məsafədə olması və eyni zamanda, onların bir çoxu ilə vaxtında strateji əlaqələr qurması, eləcə də vaxtı və məqamı düzgün seçməsi sayəsində. Yəni dünyada və bölgədə ən çətin geosiyasi vəziyyətin hökm sürdüyü şəraitdə Azərbaycan öz məqsədinə nail oldu. Doğrudur, bu zaman ölkəmiz ermənipərəst xarici qüvvələrin güclü təzyiqləri ilə üzləşdi. Amma buna baxmayaraq, Azərbaycan hakimiyyəti əvvəlcədən zərgər dəqiqliyi ilə düşünülmüş strategiyasından geri çəkilmədi. Əksinə, məhz bu strategiyanı gerçəkləşdirməklə özünün beynəlxalq nüfuzunu daha da gücləndirdi.

Bakının strategiyasının özəlliyi həm də ondan ibarətdir ki, Azərbaycan beynəlxalq hüququn verdiyi şansdan tutmuş ondan imtinaya qədər bütün imkanlardan maksimum yararlanmağı bacardı.

Beynəlxalq hüquqa müraciətin azaldığı, onu məqsədəuyğunluq və fayda prinsiplərinin əvəzlədiyi zəmanəmizdə Ukrayna öz strategiyasını qurmağı bacarmamağın altını çəkir, – desək, yəqin yanılmarıq.



Qərbi Kaspi Universitetinin professoru, politoloq Fikrət Sadıxov XQ-yə açıqlamasında bildirdi ki, ukraynalıların taleyi Ukraynasız həll edilə bilməz: "Heç bir kənar qüvvə Ukraynanın iştirakı olmadan hansısa qərarı qəbul edə bilməz. Çünki söhbət Ukraynanın öz ərazisindən gedir. Əslində, Ər-Riyad görüşündə Ukrayna məsələsi müzakirə mövzusu deyildi. Masaya qoyulan əsas məsələ ABŞ və Rusiya arasında münasibətlərin bərpası olub. Digər tərəfdən, tərəflər belə qərara gəliblər ki, ikitərəfli təmaslar üçün nümayəndə heyətlərinin tərkibi təsdiq olunsun. Həmin heyət Rusiya–Ukrayna münaqişəsinin müzakirəsi və son qərarın hazırlanması ilə məşğul olacaq. Bu, ilk görüş idi. ABŞ-la Avropa ölkələri arasında son vaxtlar ziddiyyətli münasibətlərin yarandığını müşahidə edirik. Avropa Ər-Riad görüşünə kifayət qədər sərt reaksiya verib. Onu da nəzərə almalıyıq ki, bütün müharibələr sonda sülh sazişinin imzalanması ilə yekunlaşır.

Azərbaycan 90-cı illərin əvvəllərində çox müdrik bir addım ataraq, Bişkek protokolunu imzaladı. O zaman buna görə bəzi qüvvələr Bakını qınayır, ona qarşı, guya, kapitulyasiya aktını imzalamış kimi davranırdılar. Ptotokolu imzalamağımız ona görə düzgün addım idi ki, ondan sonra Azərbaycan "Əsrin müqaviləsi"ni əldə etdi, ölkəmizin neft-qaz sektoruna böyük həcmdə sərmayələr qoyuldu. Bunun sayəsində hərbi potensialı artırdıq, ordunu gücləndirdik. Nəticədə, tək diplomatik vasitələrlə yox, həm də öz gücümüzlə tarixi ədaləti, suverenliyimizi bərpa etdik. Bu zaman bəzi ölkələrlə ortaq razılığa gəldik, bəzilərini neytrallaşdırmağı bacardıq. Dünyanın oxşar problemlərlə üzləşmiş bəzi ölkələrı bu örnəkdən yararlansalar, müsbət nəticələr əldə edə bilərlər.

Ukrayna–Rusiya münaqişəsinə son qoyulması da bir neçə amildən asılıdır. Bunu həm hərbi, həm də diplomatik yolla həll etmək lazımdır. Amma birmənalı olaraq, Ukraynanın iştirakı ilə".

* * *

Tanınmış ekspertin fikirlərinə hörmətlə yanaşaraq, hadisələrin ardıcıllığına nəzər salaq. Ər-Riyaddakı məlum görüşdən əvvəl emosional sonluğu ilə yadda qalan Münxen Təhlükəsizlik Konfransı keçirildi. Tədbir ABŞ-ın vitse-prezidenti J.D.Vensın Avropa nizamını pisləməsi ilə başladı və konfransın sədri Kristof Heusgenin "itirilmiş" Avropaya göz yaşları axıtması ilə sona çatdı. Emosiyalarına hakim ola bilməyən sədr nitqini yarımçıq kəsdi, kövrəldi və tribunadan getdi. Donald Trampın Ukrayna və Rusiya üzrə xüsusi nümayəndəsi Keyt Kelloq isə Vaşinqtonun avropalıları Rusiya–Ukrayna münaqişəsi ilə bağlı qarşıdan gələn danışıqlara dəvət etməyəcəyini açıqladı.

Bəli, avropalılar Vaşinqtondan küsüblər. Onlar Parisdə Ukrayna ilə bağlı ayrıca görüş keçirərək, qapını çırpmağa qərar versələr də nəticədə, ABŞ-ın zəmanəti olmadan Ukrayna üçün heç nə edə bilməyəcəkləri qənaətinə gəldilər. Mövcud durumun dramatik-ironik mənzərəsi budur. İndi ən ağıllı, praqmatik avropalılar hansı gülünc vəziyyətə düşdüklərinin fərqindədirlər. Almaniyanın "Rheinmetall" müdafiə konserninin rəhbəri Armin Papperger "Financial times"qəzetinə müsahibəsində dediyi sözlər durumu əla təsvir edir. O, indiki vəziyyətdə avropalıları "böyüklər üçün masa arxasında oturmağa icazə verilməyən uşaqlarla" müqayisə edib.

Əlbəttə, düzgün müəyyən edilmiş hədəflərdən danışarkən anın hökmü kimi amildən də bəhs etmək çox vacibdir. İki fərqli vəziyyəti müqayisə edək: indi Ukraynanın taleyi onun iştirakı olmadan həll olunur. Amma iki il əvvəl Kiyev yaxınlığından rus qoşunlarını vurub çıxararkən ukraynalılar İstanbulda Moskva ilə danışıqlarda öz gələcəklərini müstəqil həll etməyə yaxın idilər. Az sonra müvəqqəti uğurun eyforiyası, qismən də xarici qüvvələrin təşviq və təzyiqləri. O zaman çox şey verəcəklərini və edən həmin kənar güclər sözlərinin üstündə durmadılar.

İndi gəlin, bunu 2020-ci ilin noyabrı ilə müqayisə edək. Onda Azərbaycan Ordusu bir neçə gün ərzində Xankəndidə də üçrəngli bayrağımızı qaldıra bilərdi. Fəqət Azərbaycan hakimiyyəti günün və şəraitin tələblərini nəzərə almaqla hücumu dayandırdı. Həlledici addımını 2023-cü il sentyabrın 20-də lokal antiterror əməliyyatı üçün saxladı. Çünki döyüş və diplomatik meydanın "təmizlənməyə" ehtiyacı vardı. Nəticədə, Azərbaycanın suverenliyi tamamilə bərpa olundu. Nəyin və nə vaxt edilməli olduğunu düzgün müəyyənləşdirmək Azərbaycan rəhbərliyinin strateji düşüncəsinin ayrılmaz atributudur.

İndi kənar müşahidəçiyə elə gələ bilər ki, ABŞ və Rusiya öz aralarında Ukraynanın taleyini həll edirlər. Əslində, keçmiş "soyuq müharibə" rəqiblərinin müzakirə mövzusu Ukraynanın sərhədlərindən daha geniş geosiyasi arealı əhatə edir. Söhbət dünyanın xəritəsinin yenidən çəkilməsindən gedir.

Yazımızın əvvəlini böyük ingilis diplomatı Çörçilldən iqtibasla başladıq. Son nöqtəni də onun sözləri ilə qoyuruq: "Bir saniyə itirmədən, dərhal və qətiyyətlə həyat adlanan döyüş meydanında yer tutmaq lazımdır. Sahib olduğunuz şeylə kifayətlənməyin, məğlubiyyətlə heç vaxt barışmayın. Çünki, dünya fəth edilmək üçün mövcuddur".

Fatehləri isə heç kəs mühakimə edə bilməz.

***İmran BƏDİRXANLI***
***XQ***

# Xəzər İqtisadi Forumu regionda əlaqələri gücləndirəcək

*(əvvəli 1-ci səhifədə)*

Ötən müddət ərzində Xəzər İqtisadi Forumu iştirakçı dövlətlər arasında iqtisadi-ticari əməkdaşlığın aktual məsələlərinin müzakirəsi üçün mühüm platformaya çevrilib, Xəzəryanı dövlətlərin başçıları tərəfindən sülh, harmoniya, mehriban qonşuluq və səmərəli beynəlxalq əməkdaşlıq dəhlizi kimi dəyərləndirilib. Bundan əvvəl 2022-ci ildə Moskvada keçirilmiş ikinci forumun Birgə Kommünikesində ticarət dövriyyəsinin artırılması, regionun investisiya cəlbediciliyinin və Xəzəryanı dövlətlərin iqtisadi rəqabət qabiliyyətinin gücləndirilməsi tərəflər qarşısında mühüm vəzifələr kimi qoyulub.

Azərbaycanın Baş naziri Əli Əsədov ölkəmizlə Xəzəryanı dövlətlər arasında iqtisadi-ticari əməkdaşlığın dinamik inkişaf etdiyini bildirib və respublikamızın forumun iştirakçı ölkələrlə ticarət dövriyyəsinin 2024-cü ilin sonunda 6 faizdən çox artdığını sevindirici hal kimi qiymətləndirib. 2018-ci ildə Aktauda imzalanan Xəzəryanı dövlətlərin hökumətləri arasında iqtisadi-ticari əməkdaşlıq haqqında Sazişin 2023-cü ildə qüvvəyə minməsinin vacibliyini diqqətə çatdıran Baş nazir bu sazişin həyata keçirilməsinin ticarət, sənaye, kənd təsərrüfatı, turizm sahələrində və digər sektorlarda praktik tədbirlərin inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib.

Forumda Xəzəryanı dövlətlər arasında müxtəlif səviyyələrdə qarşılıqlı fəaliyyətin bir sıra formatları və mexanizmlərinin mövcudluğu, sahəvi əməkdaşlıq üzrə möhkəm müqavilə-hüquqi bazanın yaradıldığı, ən yüksək səviyyədə qəbul edilmiş qərar və razılaşmaların həyata keçirilməsi istiqamətində ciddi iş aparıldığı diqqətə çatdırılıb. Eyni zamanda, 2018-ci ildə Aktauda imzalanan Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın Xəzərdə hərtərəfli əməkdaşlıq üçün baza sənədi kimi mühüm önəm daşıdığı bildirilib.

Yuxarıda qeyd etdik ki, 2022-ci ildə keçirilən II Xəzər İqtisadi Forumundan sonra nəqliyyat sektorunda regionun inkişaf etmiş infrastruktura malik böyük beynəlxalq nəqliyyat qovşağına çevrilməsi üçün əlverişli şərait yaradan mühüm razılaşmalar əldə edilib. Şərq–Qərb və Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizləri yeni inkişaf mərhələsinə daxil olub.

Xatırladaq ki, regionun əsas nəqliyyat və logistika mərkəzlərindən biri kimi Azərbaycan ərazisindən keçən Şərq–Qərb Beynəlxalq Nəqliyyat Dəhlizi Avropa və Asiya qitəsini birləşdirən ən qısa nəqliyyat marşrutudur və Çin–Qazaxıstan sərhədindən Avropa arasında yükdaşımalarda mühüm əhəmiyyətə malikdir. Bu marşrut xətti yükdaşımaların vaxtına, həmçinin yükdaşımalara çəkilən xərclərə qənaət etməyə imkan verir.

Marşrutun ölkəmiz üçün üstünlüklərinə gəldikdə isə qeyd etmək lazımdır ki, bu, Azərbaycanın tranzit potensialından maksimum istifadə olunmaqla tranzit imkanlarını artırmaq, xüsusilə də Bakı–Tbilisi–Qars dəmir yolu xətti üzrə daşınacaq yükün həcminin artırılması və bu sahədə öz rəqabətqabiliyyətliliyini yüksəltmək üçün mühüm addımdır. Dəhlizin ölkəmizin ərazisindən keçməsi tranzit yüklərin həcminin çoxalması ilə müşahidə edilməkdədir.

Xəzər İqtisadi Forumu Xəzəryanı dövlətlər arasında iqtisadi-ticari əməkdaşlığın aktual məsələlərinin müzakirəsi üçün mühüm platformaya çevrilib. Bundan əvvəl 2022-ci ildə Moskvada keçirilmiş II forumun Birgə Kommünikesində ticarət dövriyyəsinin artırılması, regionun investisiya cəlbediciliyinin və Xəzəryanı dövlətlərin iqtisadi rəqabət qabiliyyətinin gücləndirilməsi tərəflər qarşısında mühüm vəzifələr kimi qoyulub.

III Xəzər İqtisadi Forumunda bir sıra mühüm məsələlərə də toxunulub. Xəzəryanı dövlətlərin enerji sahəsində əməkdaşlığının artırılmasının zəruri olduğu, bunun üçün müvafiq katibliyin yaradılmasına ehtiyac yarandığı bildirilib. Forumda Xəzəryanı dövlətlərin böyük karbohidrogen ehtiyatlarına və neft–qaz sahəsində böyük təcrübəyə malik olduqları , neft və qaz yataqlarının aşkar edilməsində, hasil olunmasında, istehsalında, tədarükündə və ixracında geniş təcrübə qazanan bu dövlətlərin əməkdaşlığının perspektivdə gücləndirilməsinin mühüm önəm daşıdığı vurğulanıb.

İranın neft nazirinin beynəlxalq əməkdaşlıq üzrə müavini Seyid Əli Məhəmməd Müsəvi toplantıdakı çıxışında bildirib ki, təcrübə mübadiləsi tərəflər üçün faydalıdır: "Misal üçün, Azərbaycanın yataqdan neft və qazı eyni vaxtda çıxarması, borularla dünya bazarına ixrac etməsi sahəsində böyük təcrübəsi var. Qazaxıstan neft hasilatında, Rusiya isə neft və qazın istehsalında texnoloji təcrübəyə malikdir. Təcrübə mübadiləsi tərəflər üçün faydalı olar. Hər bir Xəzəryanı dövlətin neft və qaz sahəsində texniki və ixtisaslaşmış imkanı var. Bunları bölüşərək Xəzəryanı hər bir dövlət regional inkişafa töhfə verməklə yanaşı, beynəlxalq enerji təhlükəsizliyinin təmin olunmasında səmərəli rol oynaya bilər".

Azərbaycan iqtisadi, ticari və nəqliyyat sahələrində regional mövqeyini gücləndirmək məqsədilə müxtəlif formatlarda və platformalarda görüşlərin keçirilməsinə və qarşılıqlı dialoq əsasında əlaqələrin qurulmasına əhəmiyyət verir. İran İslam Respublikasının paytaxtı Tehranda keçirilən III Xəzər İqtisadi Forumu da Xəzər dənizi ətrafında yerləşən ölkələr arasında əməkdaşlığın dərinləşdirilməsi istiqamətində əhəmiyyətə malikdir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) şöbə müdiri Nicat Hacızadə bildirib ki, Xəzəryanı ölkələri öz ətrafında birləşdirən Xəzər İqtisadi Forumu nəqliyyat, tranzit, ticarət, bank sahələrində əməkdaşlıq əlaqələrinin dərinləşdirilməsi üçün Azərbaycana əlavə fürsətlər yaradır. Rusiya və Qazaxıstanla MDB, Qazaxıstan və Türkmənistanla Türk Dövlətləri Təşkilatı (TDT), İran İslam Respublikası ilə D-8 çərçivəsində əməkdaşlığı Azərbaycanı Xəzər İqtisadi Forumunda şaxəli diplomatik əlaqələrə malik ölkə kimi xarakterizə edir. Bu baxımdan, Xəzər İqtisadi Forumunda Azərbaycanın iqtisadi diplomatik gücünü daha səmərəli və təsirli hesab etmək olar.

N. Hacızadənin sözlərinə görə, Azərbaycanın əsas ticarət tərəfdaşları arasında yer alan Xəzəryanı ölkələrlə qeyri-resurs mənşəli xarici ticarət əlaqələrinin dinamikası son illər artmaqdadır. Ölkəmizin regionda əsas nəqliyyat qovşağına çevrilməsi, qərb bazarlarına çıxış üçün alternativ və unikal dəhliz funksiyalarını yerinə yetirməsi Xəzər İqtisadi Forumunda Azərbaycanın mövqeyini gücləndirir.



Digər tərəfdən, bir sıra regionlarda geosiyasi və iqtisadi şəraitin dəyişməsi fonunda Azərbaycan Xəzəryanı ölkələr arasında investisiya mühitinə və yeni istehsal müəssisələrinin yaradılması imkanlarına görə digər respublikalardan fərqlənir.

İİTKM-in şöbə müdiri diqqətə çatdırıb ki, 2024-cü ilin 9 ayı ərzində Azərbaycan iqtisadiyyatına Xəzəryanı ölkələr tərəfindən 400 milyon ABŞ dollarına yaxın birbaşa xarici investisiya qoyuluşu həyata keçirilib. Bu göstərici ümumi xarici sərmayə axının, təxminən, 10 faizə yaxın hissəsinə bərabərdir. Şübhəsiz, son 10 ildə Xəzəryanı ölkələrin müəyyən hissəsinin iqtisadi dalğalanmalara məruz qalması inflyasiya və investisiya göstəricilərinə təsir göstərib. Bu baxımdan, Xəzər İqtisadi Forumu qarşılıqlı investisiya mübadiləsinin artırılması baxımından əhəmiyyətli platforma hesab edilə bilər.

Forumda çıxış edən Baş nazir Əli Əsədov Xəzərin dayazlaşması problemi, nəqliyyat dəhlizləri və regionda təhlükəsizlik məsələlərindən danışıb. O, Xəzəryanı ölkələr arasında xarici ticarət əlaqələrinin perspektivinə də toxunub. Belə ki, 2024-cü ildə Azərbaycanla Xəzəryanı ölkələr arasında xarici ticarət dövriyyəsi 2023-cü ilə nəzərən 6,2 faiz artaraq 6,3 milyard ABŞ dolları təşkil edib. Bu göstərici ümumi ticarət dövriyyəsinin 13,2 faizini təşkil edir. Bundan əlavə, Azərbaycanın Xəzəryanı ölkələrə ixrac dövriyyəsi 1faiz artaraq 1,4 milyard ABŞ dolları təşkil edib.

N.Hacızadə əlavə edib ki, Xəzər İqtisadi Forumunda Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərində Azərbaycanın rolu xüsusi vurğulanıb. Bildirilib ki, ölkəmiz nəqliyyat infrastrukturunun müasirləşdirilməsi hesabına bu dəhlizlərin ötürücülük qabiliyyətinin artırılmasına əlavə vəsaitlər yatırır. Bu dəhlizlər Azərbaycanın regional logistika qovşağı kimi əhəmiyyətini də artıraraq, ölkəmizin təkrar ixrac rolunu da yüksəldə bilər.

***V. BAYRAMOV***
***XQ***

İsrafil Qurbanov – 75

# Peşəkar jurnalistin dövlət qulluqçusu örnəyi

**Azərbaycan peşəkar jurnalistika məktəbi mediamızla yanaşı, ictimai həyatın digər sahələrinə, eləcə də dövlət idarəçiliyinə layiqli yetirmələr verib. Belə soydaşlarımızın peşə bacarığı və işgüzarlığı milli-mənəvi dəyərlərimizin qorunması və zənginləşdirilməsi ilə bağlı fəaliyyət sahələrində yeni bir keyfiyyətə çevrilərək yaranmış tələbatı cavablandırıb.**

Gündəlik fəaliyyətində ədəbi dilimizdən ən yüksək tələblərə uyğun istifadə edən jurnalistlərin xalq hərəkatı dövründə və müstəqilliyimizin ilk illərində xalqımızın ana dilinin dövlət dili statusunun gerçəkləşdirilməsində xidmətləri bu gün məmnunluq və minnətdarlıqla yad edilir. Sovet dövründə müxtəlif üslublu tərcümə materiallarının doğma dilimizdə aydın və səlis səslənməsində də peşəkar jurnalistlərin fəaliyyəti xüsusi bir dəyər kimi diqqəti cəlb edir. Belə həmkarlarımızdan biri də Bakı Dövlət Universiteti jurnalistika fakültəsinin 1973-cü il məzunu İsrafil Qurbanovdur.



İsrafil Mirzəhməd oğlu Qurbanov 1950-ci ilin 22 fevralında Quba rayonunun Xanəgah kəndində dünyaya göz açıb. İlk təhsilini doğulduğu kənddəki səkkizillik məktəbdə alan soydaşımız Xaçmaz şəhərindəki fəhlə-gənclər orta məktəbini bitirdikdən sonra 1968-ci ildə BDU-nun jurnalistika fakültəsinə daxil olub. Uşaqlıqdan zəhmət və halallıq mühitində böyümüş gənc İsrafil gecə növbəsində işləməklə tələbəlik ehtiyaclarını özü ödəyib.

1975-ci ildə orduda 2 illik zabit xidmətindən sonra jurnalist fəaliyyətinə Azərbaycan Jurnalistlər İttifaqının "Müxbir" bülletenində başlayan İsrafil Qurbanov rus – Azərbaycan dillərində tarixi materiallarla sərbəst işləmək bacarığına görə Azərbaycan KP MK yanında Partiya Tarixi İnstitutuna baş elmi işçi vəzifəsinə aparılıb. Onun bu bacarığı ölkə parlamentində Azərbaycan dilindən istifadənin genişləndiyi bir dövrdə rəhbər dairələrdə də diqqəti cəlb edib. Beləliklə, peşəkar jurnalistika məktəbində püxtələşən, ana dilimizin təəssübünü qeyrətlə çəkən həmkarımız 1981–1987-ci illərdə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti aparatında böyük məsləhətçi kimi rəsmi materialların Azərbaycan dilində hazırlanıb nəşr edilməsində fədakarlıqla çalışıb.

1989–1991-ci illərdə Azərbaycan KP MK-da kargüzarlıq ana dilimizdə təşkil edildə İsrafil Qurbanov bu sahədə təcrübəli praktik dil mütəxəssisi kimi partiya aparatında təlimatçı vəzifəsinə gətirilib. Ölkəmizdə ali partiya idarəçiliyinin bazasında prezident idarəçiliyinə keçiləndə isə o, fəaliyyətini aparatın ümumi şöbəsində davam etdirib. İsrafil müəllim o zamandan gördüyü işlərin önəmini və miqyasını ölkəmizin rəsmi media qurumlarında çalışanlar daha yaxşı bilirlər. Çoxlarının kənardan ciddi bir məmur kimi gördüyü və tanıdığı İsrafil müəllim vətənpərvər və yaradıcı mütəxəssis kimi daim ali idarəçilik qurumunda Azərbaycan dilinin keşiyində dayanıb, bu fəaliyyəti ilə milli mediamıza da dəyərli xidmət göstərib.

Müstəqilliyin ilk illərində AZƏRTAC-da çalışdığım zaman baş direktor müavini olan, sonra bu quruma rəhbərlik edən ustad jurnalist Şamil Şahməmmədovdan tez-tez eşidirdik: "Bizə Prezident Aparatından göndərilən materiallar İsrafil Qurbanovun əlindən çıxdığına görə mükəmməl və qüsursuz olur". Şamil müəllim bunu ona görə deyirdi ki, başqa dövlət qurumlarından, xüsusən nazirliklərdən gələn informasiya mətnləri, rəsmi sənədlər bərbad vəziyyətdə olurdu. Bu, uzun illər rus dilində kargüzarlıq aparmış rəsmi qurumların keçid çətinlikləri idi.

Belə bir vaxtda İsrafil müəllimin və onunla birgə çalışanların çətin və məsuliyyətli fəaliyyəti ana dilimizin dövlət statusunun təmin edilməsində bir nümunə olmaqla yeni kargüzarlıq normativlərini də formalaşdırdı. Azərbaycanda ictimai-siyasi terminologiyanın təkmilləşdirilməsində və düzgün tətbiqində İsrafil müəllimin də xidmətləri qədirincədir.

Azərbaycanın tanınmış folklorşünası və publisisti, İsrafil müəllimin tələbəlik dostu Əli Şamil İsrafil Qurbanovun milli təmayüllü jurnalist kimi formalaşdığı mühiti belə xatırlayır: "Ötən əsrin 60 – 70-ci illərinin tələbələri gələcək milli oyanış və milli intibahın qaranquşları idilər. Təhsil aldığımız jurnalistika fakültəsində milli özünəqayıdış prosesi daha çox hiss olunurdu. Şirməmməd Hüseynov, Nurəddin Babayev, Nəriman Zeynalov, Famil Mehdi, Tofiq Rüstəmov kimi müəllimlərimiz demokratik jurnalistikamızın ənənələrini dirçəldir, tələbələri "Əkinçi", "Molla Nəsrəddin" ruhunda, Həsən bəy Zərdabinin, Cəlil Məmmədquluzadənin, Üzeyir Hacıbəylinin davamçıları kimi yetişdirməyə çalışırdılar.

İsrafil də fəal tələbə kimi milli qaynaqlara, "7 qıfıl" altında saxlanan milli istiqlal tariximizə xüsusi maraq göstərirdi. Bu axtarışlar onun tələbə elmi konfransları üçün hazırladığı, mətbuatda çap etdirdiyi məqalələrdə də əksini tapırdı. Onun XX əsrin əvvəllərində dövlətçiliyimizin bərpası və itirilməsi ilə bağlı tələbə tədqiqatı, xüsusən Nəriman Nərimanovun publisistikası mövzusunda məruzəsi vətənpərvərlik, Azərbaycanın müstəqilliyinə rəğbət ruhu ilə seçilmişdi. O vaxt biz İsrafilin milli ruhlu bir alim olacağını düşündük. İctimai həyatımızın ciddi bir tələbatı – ana dilimizin rəsmi dairələrdə geniş işləkliyinə nail olmaq və onun dövlət dili səviyyəsinə yüksəlməsində fəal iştirak etmək ehtiyacı İsrafili məmur kimi çalışmağa yönəltdi. Lakin o harada işlədisə, jurnalist peşəkarlığından bacarıqla istifadə etdi, gözləntilərimizi doğrultdu".

BDU-nun jurnalistika fakültəsində İsrafil müəllimin diplom işi də böyük əks-səda doğurub. Milli mətbuatımızın müstəqillik uğrunda mübarizəsinə həsr olunmuş, Şirməmməd Hüseynovun rəhbəri olduğu bu diplom işi o dövrdə Azərbaycanda baş vermiş mürəkkəb proseslərə müəyyən qədər işıq salıb.

Digər tələbə yoldaşı Rəhim Hüseynzadə isə bildirir ki, İsrafil yaxın çevrəsinə qayğı və himayəsini heç vaxt əsirgəməyib: "Tələbəlik illərində İsrafil gecələr metropolitendə işləyirdi, maddi çətinliyimiz olanda, evdən öncə onun yanına qaçırdıq. Buna görə də adını "Qayğı" qoymuşduq. Sonralar da İsrafilin köməyindən faydalandıq".

Dövlət qulluqçusu kimi İsrafil Qurbanov 1991-ci ildən Azərbaycan Respublikası Prezidenti Admisitrasiyasında məsləhətçi, sektor müdiri və 2007-ci ildən isə şöbə müdirinin müavini vəzifələrində çalışıb. Bu dövrdə o bacarığı və peşəkarlığı ilə aparatda nümunəvi işçi olub.

İsrafil Qurbanovun xidmətləri müxtəlif dövlət təltiflərinə layiq görülüb. O, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanına, "Dövlət qulluğunda fərqlənməyə görə" və "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi" medallarına, dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə 3-cü və 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordenlərinə, "Əməkdar dövlət qulluqçusu" fəxri adına layiq görülüb.

İsrafil Qurbanov Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi müdirinin müavini kimi ölkə Prezidentinin tapşırıq və tövsiyələrinə uyğun olaraq dövlət qurumlarında vətəndaşların müraciətlərinə baxılması işini yaxşılaşdırmaq üçün həyata keçirilən tədbirlərdə yaxından iştirak etməklə öz təcrübəsini onunla çalışan gənclərə həvəslə öyrədib.

Təqaüddə olan dövlət qulluqçusu kimi son illərdə yenidən jurnalist dostlarının yaxın çevrəsində olan, peşəkar fəaliyyətini Müəllif Hüquqları Agentliyində davam etdirən İsrafil Qurbanovun zəngin və mənalı bioqrafiyası yetirməsi olduğu media ictimaiyyətinə başucalığı və öyünc gətirib. O bir jurnalist kimi heç vaxt həmkarları ilə əlaqələrini kəsməyib, mətbuatda maraqlı, aktual yazılarla çıxış edib.

Bu gün 75 illik yubileyini Vətənə layiqli xidmət timsalı kimi qeyd etdiyimiz həmkarımızın ömür yolu peşəkar jurnalistin uzun illər boyu yaratığı dövlət qulluğu örnəyinə çevrilib. Milli jurnalistikamızın yetkin və fədakar yetirməsini səmimi təbrik edir, ona möhkəm cansağlığı və yeni uğurlar arzulayırıq.

*Namiq QƏDİMOĞLU*
*XQ*



# Bakıda APA-nın 15-ci Plenar Sessiyası

**Fevralın 19-da Milli Məclisdə Asiya Parlament Assambleyasının (APA) "Asiyada çoxtərəfli əməkdaşlığın gücləndirilməsində parlament diplomatiyasının rolu" mövzusuna həsr edilmiş 15-ci plenar sessiyasının açılış mərasimi keçirilib. Tədbirdə 35 nümayəndə heyəti, ümumilikdə, 280 nəfərə yaxın qonaq iştirak edib.**

15-ci Plenar Sessiyanın açılışında Milli Məclisin sədri Sahibə Qafarova qeyd edib ki, sessiya əməkdaşlığı daha da inkişaf etdirmək və bu platformanı möhkəmləndirmək istiqamətində qətiyyətli niyyətimizin və sadiqliyimizin göstəricisidir.

Milli Məclisin sədri birgə səylərlə Asiya Parlament Assambleyasının potensialının tam şəkildə açılacağına, onun effektivliyinin maksimum dərəcədə artacağına inamını ifadə edib.

Sonra Asiya Parlament Assambleyasının Baş katibi Məhəmməd Reza Məcidi çıxış edib. O, ölkəmizin Asiya Parlament Assambleyasına sədrliyinin uğurla davam etdirildiyini bildirib. Baş katib Asiya Parlament Assambleyasının regionda sülhün, təhlükəsizliyin, etimadın gücləndirilməsinə böyük önəm verdiyini qeyd edib. Azərbaycanın üzv dövlətlər arasında əməkdaşlığın inkişaf etdirilməsinə öz töhfəsini vermək əzmində olduğunu vurğulayıb.

Sonra sessiyada Asiya Parlament Assambleyasına üzv ölkələrin parlament sədrləri, sədr müavinləri və üzvləri, o cümlədən Bəhreyn Şura Məclisinin sədri Əli Saleh Abdulla Əlsaleh, Butan Milli Assambleyasının sədri Lungten Dorci, İndoneziya Nümayəndələr Palatasının sədri Puan Maharani, İran İslam Şurası Məclisinin sədri Məhəmməd Baqir Qalibaf, Pakistan Senatının sədri Syed Yusuf Raza Gilani, Tacikistan Ali Məclisinin Nümayəndələr Palatasının sədri Mahmadtoir Zokirzoda, Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva, Oman Şura Məclisinin sədri Xalid Hilal Nasir Al Maavali, Belarus Milli Assambleyası Respublika Şurasının sədri Natalya Koçanova, Birləşmiş Ərəb Əmirlikləri Federal Milli Şurası sədrinin birinci müavini Tariq Humaid MohdAltayer, Fələstin Milli Şurasının sədr müavini Ali Faysal, İordaniya Milli Assambleyasının Nümayəndələr Palatası sədrinin müavini Əhməd Hamisat, Tailand Nümayəndələr Palatası sədrinin müavini Paradorn Prissanantakul, Türkiyə Böyük Millət Məclisinin üzvü Abdulkadir Emin Önen çıxış edib-lər, mövzu ilə bağlı fikirlərini bölüşüblər.

Çıxışlarda məclisin yüksək səviyyədə təşkil olunduğu bildirilib, Asiya Parlament Assambleyasının Azərbaycanın sədrliyi dövründə böyük uğurlar qazanacağına inam ifadə edilib. İştirakçılar müasir dünyada təhlükəsizliyin təmin edilməsinin böyük əhəmiyyət daşıdığını diqqətə çatdıraraq, bunun qarşılıqlı dialoq və konstruktiv əməkdaşlıq sayəsində mümkün olduğunu vurğulayıblar.

APA-nın bu gün qlobal çağırışlar, o cümlədən iqtisadi qeyri-sabitlik, geosiyasi gərginlik dövründə çoxtərəfli əməkdaşlığın möhkəmləndirilməsində mühüm platforma olduğu qeyd edilib. Eyni zamanda, iqlim dəyişikliyi və ətraf mühitin qorunması ilə bağlı çağırışların vacibliyindən bəhs edilərək, ötən il Azərbaycanın ev sahibliyi ilə yüksək səviyyədə keçirilmiş COP29 tədbirində əhəmiyyətli təşəbbüslərin verildiyi, mühüm qərarların qəbul edildiyi diqqətə çatdırılıb.

Fasilədən sonra öz işini davam etdirən plenar sessiyada gündəlik qəbul edilib, APA-nın Bürosu seçilib.

Sessiyada Milli Məclisin APA-da nümayəndə heyətinin rəhbəri, qurumun İcraedici Şurasının sədri Rizvan Nəbiyev məruzə ilə çıxış edib. APA-nın Baş katibi Məhəmməd Reza Məcidi qurumun fəaliyyəti ilə bağlı hesabatı təqdim edib.

Sessiyada Oman Sultanlığına tamhüquqlu üzv statusunun, Belarus Respublikasına müşahidəçi statusunun təqdim olunması ilə bağlı məsələlərə baxılıb. İclasda "Asiyada çoxtərəfli əməkdaşlığın gücləndirilməsində parlament diplomatiyasının rolu" mövzusunda müzakirələr davam etdirilib.

Plenar sessiya çərçivəsində APA-nın Sosial və mədəni məsələlər, Büdcə və planlaşdırma daimi komitələrinin iclasları da keçirilib. İclaslarda bu komitələrin profilinə uyğun məsələlərə dair qərar layihələri müzakirə olunub.

Plenar sessiya işini fevralın 20-də davam etdirəcək.

*XQ*

Dəyirmi masa

# Azərbaycan–Türkiyə media əməkdaşlığının uğurları və hədəfləri



**Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında media sahəsində strateji əməkdaşlıq haqqında Anlaşma Memorandumunun həyata vəsiqə almasından 5 il keçir. Bu münasibətlə dünən Azərbaycan Respublikasının Sosial Tədqiqatlar Mərkəzində Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin Bakı Mətbuat Müşavirliyi və Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin birgə keçirdiyi dəyirmi masada ötən müddətdəki fəaliyyət və gələcək hədəflər müzakirə edilib.**

Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Zahid Oruc açılış çıxışında Azərbaycan və Türkiyə arasındakı qardaşlıq əlaqələrinin yüksəlişi fonunda media əməkdaşlığının önəmini vurğulayıb: "Qlobal dəyişikliklər və yeni dünya təhlükəsizliyi arxitekturasının axtarıldığı bir dövrdə Azərbaycan və Türkiyə mediasının bir araya gəlməsi mühüm hadisədir. Qüruru tarixə malik Azərbaycan–Türkiyə sarsılmaz birliyi mürəkkəb formasiya və quruluşlardan keçərək son 5 ildə yeni zirvələrə yüksəlib. Bunun başlıca səbəbi isə hər iki ölkənin liderləri arasındakı sarsılmaz qardaşlıq münasibətləridir. Düşünürəm ki, növbəti illər ərzində bu münasibətlər özünün ən yüksək zirvəsinə çatacaq".

Türkiyənin Azərbaycandakı səfiri Birol Akgün Azərbaycan və Türkiyə arasında olan sıx əməkdaşlıqda hər iki ölkənin dövlət başçılarının güclü liderliyi və bənzəri olmayan qardaşlığının mühüm rol oynadığını qeyd edib: "Dünyada Azərbaycan və Türkiyə kimi sıx əlaqədə olan başqa dövlətlər yoxdur. Hər iki ölkənin sevinci və kədəri birdir. Gələcək illərdə ölkələrimizin media subyektləri və nümayəndələri arasında qardaşlıq əlaqələrinin daha da genişlənəcəyinə inanıram".

Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov bildirib ki, bizim ortaq dəyərlərimiz və bir-birini tamamlayan məqsədlərimiz əlaqələrimizi gücləndirməklə yanaşı, cəmiyyətlərimizi informasiya ilə təmin etmək kimi vacib funksiyanı yerinə yetirən yerli medianın fəaliyyətində də canlanma yaradıb: "Anlaşma Memorandumunun 5 illik yubileyini qeyd edərkən, əminəm ki, əməkdaşlığımız gələcək illərdə yeni layihələr və təşəbbüslərlə daha da zənginləşəcək. İki ölkənin media sahəsinə məsul qurumları arasında bilik və təcrübə mübadiləsi, birgə layihələrin həyata keçirilməsi və informasiya təhlükəsizliyinin təmin edilməsi kimi məsələlərdə əməkdaşlıq imkanları daha da artırılacaq".

Dəyirmi masada və panellərdə media orqanlarının və aparıcı media subyektlərinin rəhbərləri çıxış ediblər. Müzakirələrdə Türkiyə və Azərbaycan Media Platforması çərçivəsində əməkdaşlığın vəziyyəti, əldə olunan nailiyyətlər və gələcək perspektivlər diqqət mərkəzində olub.

Xatırladaq ki, "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında media sahəsində strateji əməkdaşlıq haqqında Anlaşma Memorandumu" – Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin rəhbəri Fəxrəddin Altunun və Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin imzaladıqları bu sənəd iki ölkə arasında ortaq media platforması yaradıb.

*T.RÜSTƏMLİ*
*XQ*

# "Ağ ölüm"ə qarşı mübarizə davamlıdır

**Cari ilin yanvar ayı ərzində narkomanlığa və narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizənin nəticələri Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən müqayisəli şəkildə təhlil edilərək ümumiləşdirilib.**




Hesabat dövründə hüquq-mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilən kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 685 cinayət faktı aşkarlanıb.

Qanunsuz dövriyyədən çıxarılan 750 kiloqram 328, 026 qram narkotik vasitələrin və psixotrop maddələrin ümumilikdə dəyəri 19 milyon 430 min AZN kimi qiymətləndirilir.

Narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayət məsuliyyətinə 235 nəfər cəlb edilib. Həmin şəxslərdən 227-si kişi, 8-i qadındır. Cinayət məsuliyyətinə cəlb edilən şəxslərdən 7 nəfəri xarici ölkə vətəndaşıdır.

Dövlət Komissiyasının İşçi Qrupunun təşkilatçılığı ilə 2025-ci il yanvarın 28-də qanunsuz dövriyyədən çıxarılan və ya müsadirə olunan külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə Komissiya tərəfindən 24 qərar əsasında barəsində məhvetmə qərarı qəbul edilən 5 ton 168 kiloqram 332,011 qram müxtəlif növ narkotik vasitələr və psixotrop maddələr yandırma üsulu ilə məhv edilib.

Yeni statistik hesabat formasına uyğun Daxili İşlər Nazirliyi tərəfindən bütün növ sərxoşluq hallarının müəyyənləşdirilməsi üçün Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinə 7 min 859 nəfər istiqamətləndirilib. Onlardan narkotiklərdən istifadənin təyin edilməsi məqsədilə tibbi müayinədən keçirilən 431 nəfərdən 225 nəfərinin istifadəçi olması müəyyən olunub və bununla bağlı zəruri tədbirlərin görülməsi təmin edilib.

Cari ilin yanvar ayı ərzində "802" qaynar xətt telefon zəng xidmətinə 64 vətəndaş müraciəti daxil olub.

*XQ*

# Yanvarda büdcəyə vergi gəliri – 2 milyard 259,9 milyon manat



**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumatına əsasən, ölkədə bağlanmış əmək müqavilələrinin sayı cari il fevral ayının 1-nə 1 milyon 860 min 25 (2019-cu ilin əvvəli ilə müqayisədə 458 min 110 vahid çox) olub. Qeyri-neft sektorunun özəl bölməsində isə həmin göstərici 430 min 225 vahid artaraq 970 min 147-yə yüksəlib.**

Qeyd edilib ki, bağlanmış əmək müqavilələrinin sayında artım iş yerlərinin rəsmiləşdirilməsi, əməkhaqqı fondunun "ağardılması" və şəffaflılığın təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlərlə bağlıdır. Bu ilin yanvarında İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə dövlət büdcəsinə 2 milyard 259,9 milyon manat vergi daxil olub. Aylıq vergi daxilolmalarının 1 milyard 378,2 milyon manatı və yaxud 61 faizi (əvvəlki ilə nisbətən 11,6 faiz çox) qeyri-neft-qaz sektorunun payına düşüb.

2025-ci ildə Dövlət Vergi Xidmətinin xətti ilə büdcəyə 15,5 milyard manat vəsaitin daxil olması proqnozlaşdırılır ki, bunun da 75,3 faizinin və yaxud 11,67 milyard manatının qeyri-neft-qaz, 24,7 faizinin və yaxud 3,83 milyard manatının isə neft-qaz sektorunun payına düşəcəyi gözlənilir. Bu il qeyri-neft-qaz sektoru üzrə vergi gəlirlərinin qeyri-neft ÜDM-nə nisbəti 12,7 faiz həddində proqnozlaşdırılır.

Dövlət Vergi Xidmətindən aldığımız məlumata görə, dövriyyələrin şəffaflaşdırılması istiqamətində görülən tədbirlər, gəlirlərin bəyanetmə səviyyəsinin yüksəlməsi, könüllü bəyanetmənin əhəmiyyətli dərəcədə qalxması, eləcə də vergi inzibatçılığında islahatlar, iqtisadiyyatın ayrı-ayrı sektorlarında nəzərəçarpan artım templəri həm tədiyə növləri üzrə, həm də qeyri-neft sektorunda vergi daxilolmalarının artımına əlverişli şərait yaradır.

İqtisadiyyatda şəffaflaşma proseslərinin davamlı olmasını təsdiqləyən göstəricilərdən biri də ƏDV-yə cəlb olunan dövriyyələrdə, qeyri-neft sektorunun dövriyyələrində artım templərinin, habelə elektron qaimə-fakturalarla rəsmiləşən dövriyyələrin artım dinamikasının sürətlənməsi və bunun ümumi dövriyyədə xüsusi çəkisinin yüksəlməsidir.

Son 5 il ərzində reallaşdırılan islahatların nəticəsi kimi qeydə alınan davamlı artım iqtisadiyyatımızın dayanıqlılığına, mürəkkəb iqtisadi şəraitdə dinamik göstəricilərin sabitliyinə və kənar təsirlərə qarşı davamlılığına imkan verir. İqtisadi artım şəffaf biznes fəaliyyətinin təmin olunduğu şəraitdə formalaşır. Belə bir tendensiyanın davamlılığı büdcə daxilolmalarının mütəmadi artması deməkdir. Bu isə cəmiyyətin rifahının, yüksək səviyyəli sosial xidmətlərin və firavan gələcəyin təminatıdır.

Vergi sisteminin indiki inkişaf dinamikasına heç də asanlıqla nail olunmayıb. Belə ki, təqribən, ötən 30 illik bir müddətdə ölkəmizdə vergi siyasəti iqtisadiyyatın indiki tələblərinə uyğun olaraq daim təkmilləşdirilib, sahibkarlığın inkişafı və biznes mühitinin daha da yaxşılaşdırılması məqsədilə qanunvericilikdə bir sıra əsaslı dəyişikliklər edilib. Bütün bunlarla yanaşı, "kölgə iqtisadiyyatı"na qarşı mübarizə metodları təkmilləşdirilib, şəffaflaşma prosesləri genişləndirilib, dövlət-biznes münasibətlərində yeni bir transformasiyanın əsası qoyulub.

Reallaşdırılan layihələr sırasında qanunsuz sahibkarlığın qarşısının alınması, leqal fəaliyyətin vergi stimullaşdırılması mexanizmlərinin tətbiqi şəraitində biznesin şəffaflaşma çağırışlarına müsbət reaksiya verərək adaptasiya prosesinin diqqətdə saxlanılması kimi təşəbbüslər xüsusi yer tutub. Nəticədə, "kölgə iqtisadiyyatı"nın "ağarması" prosesi getdikcə sürətlənib. Bu, bəyan edilən dövriyyələrin, daxili istehsalın və ticarətin göstəricilərində, ticarət əməliyyatlarında sənədləşmənin səviyyəsində, elektron qaimələrin dövriyyədəki payında, bağlanmış əmək müqavilələrinin sayında özünü qabarıq büruzə verib. Bununla bağlı dövlətimizin başçısı çıxışlarının birində "kölgə iqtisadiyyatı"-nın miqyasının azaldılmasının vergi daxilolmalarının artmasına əsaslı təsir göstərdiyini diqqətə çatdırıb: "Əldə olunan fiskal nəticələrdə iqtisadi artımla yanaşı, "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması, biznes fəaliyyətinin və gəlirlərin leqallaşdırılması kontekstində atılan addımların da böyük rolu olub".

Beləliklə, sahibkarlıq fəaliyyətinin yaxşılaşdırılması və "kölgə iqtisadiyyatı"-nın miqyasının azaldılması istiqamətində reallaşdırılan tədbirlər bir çox sahələrdə fəaliyyəti leqallaşdırmağa və fəal ödəyicilər kateqoriyasını artırmağa imkan verib. 2024-cü il iyun ayının 1-nə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə vergi ödəyicilərinin ümumi sayında 6,9 faiz, o cümlədən fiziki şəxslərin sayında 6,5 faiz, hüquqi şəxslərin sayında isə 9,7 faiz artım qeydə alınıb.

Azərbaycanda "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması sahəsində son illər əhəmiyyətli nəticələr əldə edilib. Dövlət başçısı tərəfindən müəyyənləşdirilən hədəflərə uyğun şəkildə vergi sistemində ciddi dəyişikliklər və yeni yanaşmalar tətbiq olunub, iqtisadiyyatda şəffaflaşma prosesləri genişləndirilib. Şəffaf münasibətlərin qurulması kontekstində atılan addımlarla dövlət – biznes münasibətlərində yeni bir transformasiyanın əsası qoyulub. Yumşaq vergi nəzarəti, həmçinin yeni vergi güzəştləri mexanizmlərinin tətbiqi ilə biznesin "kölgə"dən çıxmasına nail olunub.

Yeri gəlmişkən, hazırda qanunvericiliyə edilmiş dəyişikliyə əsasən, maliyyə sanksiyaları yalnız hesabat dövrü üzrə vergi tutulan və ya vergidən azad edilən əməliyyatlar aparan, habelə vergi hesabatları vermək öhdəliyi olan vergi ödəyicisi tərəfindən vergi hesabatının əsas olmadan müəyyənləşdirilən müddətdə təqdim edilməməsinə görə tətbiq olunur. Hesabat dövründə sahibkarlıq fəaliyyəti və ya digər vergi tutulan əməliyyatının olmaması barədə arayış verməyən vergi ödəyicilərinə maliyyə sanksiyaları tətbiq edilmir.

Qeyri-neft sektorunun inkişafının vergi daxilolmalarının artımına təsirindən bəhs edərkən bir məqamı da xatırlatmaq istərdik. Belə ki, ölkəmizdə həyata keçirilən vergi islahatları iqtisadi zonalarda əlverişli biznes şəraitinə də müsbət təsir göstərib. Məsələn, texnologiya və sənaye parklarının rezidentləri üçün səmərəli vergi mühiti yaradılıb. Hər bir startap 3 il müddətinə gəlir vergisindən azad edilib. Həmçinin kənd təsərrüfatı sahəsində vergi dərəcələri azaldılıb və sahibkarlıq fəaliyyətinin təşviqi diqqət mərkəzində saxlanılıb. Biznes fəaliyyətinin inkişafında bütünlükdə rəqəmsallaşma böyük rol oynayıb. Heç şübhəsiz, bu məsələnin həllinə hər bir sahibkar üçün əlçatan dövlət vergi sisteminin yaradılması önəmli təsir göstərib.

# Xarici ticarətdə ixrac idxalı 986 milyon dollar üstələyir

**Dövlət Gömrük Komitəsinin məlumatına görə, cari ilin yanvar ayında Azərbaycan xarici ölkələrlə 5 milyard 91 milyon ABŞ dolları (ötən ilin eyni dövrünə nisbətən 70,5 faiz çox) dəyərində ticarət əməliyyatı aparıb.**



Xarici ticarət dövriyyəsinin 3 milyard 38 milyon dolları ixracın, 2 milyard 52 milyon dolları isə idxalın payına düşüb. Son 1 ildə ixrac 64,8 faiz, idxal isə 79,7 faiz artıb. Son nəticədə xarici ticarətdə 986 milyon dollarlıq (illik müqayisədə 40,5 faiz çox) müsbət saldo yaranıb.

Dövlət Gömrük Komitəsinin statistikasında isə yanvar ayında ölkəmizin bitumlu süxurlarından alınan 3 milyon 460 min ton xam neft və neft məhsullarının ixraca yönəldildiyi, satılan xam neftin dəyərinin 1 milyard 903 milyon dollar təşkil etdiyi bildirilib. İxrac edilən xam neftin həcmi 2024-cü ilin yanvar ayı ilə müqayisədə 2,4 dəfə, dəyəri isə 2,2 dəfə çox olub. Azərbaycanın ümumi ixracında bitumlu süxurlardan alınan xam neft və neft məhsullarının payı isə 62,63 faizə yüksəlib.

Bundan başqa, cari ilin yanvar ayında gömrük bəyannamələrinə əsasən, Azərbaycan 2 milyard 338 milyon 620 min kubmetr (2024-cü ilin ilk ayı ilə müqayisədə 21,05 faiz çox) həcmində təbii qaz satıb. İxrac edilən təbii qazın dəyəri 870 milyon 82,68 min dollar (17,6 faiz çox) təşkil edib.

Hesabat ayında respublikamızdan 60 milyon 488 min dolları dəyərində 58 min 73 ton meyvə-tərəvəz ixrac edilib. Dövlət Gömrük Komitəsinin hesablamalarına görə, ötən ilin müvafiq dövrü ilə müqayisədə ölkədən ixrac edilən meyvə-tərəvəzin dəyəri 10,8 faiz və ya 5,9 milyon dollar, həcmi isə 17 faiz və ya 8466 ton artıb. 2024-cü ilin yanvar ayında Azərbaycandan 54 milyon 611 min dollar dəyərində 49 min 606 ton meyvə-tərəvəz ixrac edilib. Ötən ay meyvə-tərəvəzin ümumi ixracda xüsusi çəkisi 1.99 faizə, qeyri-neft məhsullarının ixracında olan çəkisi isə 24.61 faizə bərabər olub.

Qeyd edək ki, hesabat dövründə əsas ixrac olunan meyvə-tərəvəz məhsulları 14 milyon 714 min dollar dəyərində tomat (13 min ton), 14 milyon 45,4 min dollar dəyərində meşə fındığı (2 min ton), 19 milyon 292 min dollar dəyərində xurma (26 min ton), 6 milyon 858 min dollar dəyərində alma (10 min ton ), 2 milyon 14 min dollar dəyərində nar (2 min ton) və 33,9 min dollar dəyərində kartof (113 ton) olub. Xatırladaq ki, 2024-cü ildə Azərbaycandan 707 milyon 795 min dollar dəyərində 686 min 254 ton meyvə-tərəvəz ixrac edilib.

# "ƏDV geri qaytar" – 17,5 milyon manat

**Bu ilin yanvar ayında Azərbaycanda pərakəndə ticarət və yaxud ictimai iaşə fəaliyyəti göstərən obyektlərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla), eləcə də tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslərin göstərdiyi tibbi xidmətlərə görə ödənilmiş ƏDV-nin 17,5 milyon manat hissəsi fiziki şəxs olan istehlakçılara geri qaytarılıb.**



İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumatına görə, "ƏDV geri al" layihəsinin reallaşdırılması nəticəsində pərakəndə ticarət, iaşə və tibb xidmətləri sahələrində nağdsız ödəmələrin xüsusi çəkisi əhəmiyyətli şəkildə yüksəlib.

Bundan başqa, "ƏDV geri al" layihəsinin əhatə dairəsinin genişləndirilməsi nəticəsində fiziki şəxs olan istehlakçıların ölkə ərazisində bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada aldığı yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin bir hissəsinin qaytarılması prosesi də davam etdirilir. Ötən ay nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin qaytarılan məbləği isə 3,4 milyon manatdan çox olub.

# "Yaşıl" enerji maarifləndirməsi

**Energetika Nazirliyinin təşəbbüsü və təşkilatçılığı ilə bərpaolunan enerji sahəsində fəaliyyət göstərən yerli şirkətlərin nümayəndələri üçün kiçik həcmli "yaşıl" enerji istehsalının, fəal istehlakçının dəstəklənməsi mövzusunda məlumatlandırıcı tədbir keçirilib. Bundan da məqsəd fiziki və hüquqi şəxslərin öz fərdi bərpaolunan enerji sistemlərini qurmaq və istehsal etdikləri artıq enerjini şəbəkəyə ötürmək imkanları barədə məlumatlılığı artırmaqdan ibarət olub.**



Açılış nitqi ilə çıxış edən Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru Cavid Abdullayev "yaşıl" enerji keçidinin iqtisadi, sosial və ekoloji cəhətdən vacibliyini vurğulayaraq fəal istehlakçı modelinin Azərbaycanda bərpaolunan enerjidən istifadənin inkişafına töhfə verəcəyini bildirib. Qeyd olunub ki, bu mexanizm vətəndaşların və sahibkarların ölkəmizdə "yaşıl" enerji istehsalında iştirakını genişləndirərək uzunmüddətli perspektivdə enerji xərclərinin azaldılmasına imkan yaradacaq.

Daha sonra Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin və "Azərişıq" ASC-nin mütəxəssisləri fəal istehlakçının dəstəklənməsi mexanizminin tətbiqinə dair qanunvericiliyin tələbləri, eləcə də texniki məqamlara dair təqdimatlarla çıxış ediblər. Təqdimatlarda günəş panelləri, külək turbinləri və digər "yaşıl" enerji qurğularının quraşdırılması, istehsal edilən artıq enerjinin şəbəkəyə ötürülməsi, tariflər, əvəzləşmə və hesablaşma mexanizmləri barədə geniş məlumat verilib. Bununla yanaşı, mövzu ilə bağlı müzakirələr aparılıb, iştirakçıların sualları cavablandırılıb və praktik təcrübələr bölüşülüb.

Sonda Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin nümayəndəsi Nigar İsmayılova çıxış edərək təmsil etdiyi qurumun Azərbaycanda dəstəklədiyi layihələr barədə məlumat verib. O, bərpaolunan enerji sahəsində fəaliyyət göstərən yerli şirkətlərin nümayəndələri üçün cari məlumatlandırma tədbirinin Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin kiçik qrant layihəsi çərçivəsində təşkil olunduğu diqqətə çatdırılıb.

# Kimya sənayesinin yeni yüksəlişi

**Dövlət Statistika Komitəsindən verilən məlumata görə, bu ilin yanvar ayında Azərbaycanda kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələrində 185,3 milyon manatlıq məhsul istehsal edilib.**



Cari ilin ilk ayında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kimya sənayesi məhsullarının istehsalı 35,9 faiz artıb, əczaçılıq məhsullarının istehsalı 30,2 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı isə 3,7 faiz azalıb.

Məlumata görə, hesabat dövründə ölkədə kimya sənayesi məhsullarından polietilen istehsalı 30,3 faiz, propen (propilen) istehsalı 26,6 faiz, etilen istehsalı 19,1 faiz, karbamid istehsalı isə 3,6 faiz artıb.

# Dəmiryol daşımaları artıb



**Bu ilin ilk ayında ölkəmizdə dəmir yolu nəqliyyatı ilə 1,5 milyon ton yük və 713,7 min sərnişin daşınıb. Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.**

Bildirilib ki, hesabat dövründə ötən ilin yanvar ayı ilə müqayisədə yük daşınmasında 9,6 faiz, sərnişin daşınmasında isə 14,6 faiz artım müşahidə olunub. Orta hesabla sutkada 436 vaqon yüklənib, 421 vaqon isə boşaldılıb. Sutka ərzində dəmir yolunun şimal istiqaməti üzrə 19,3 min ton, qərb istiqaməti üzrə 3,2 min ton, cənub istiqaməti üzrə isə 0,7 min ton yüklənmə işi yerinə yetirilib.

Xatırladaq ki, Azərbaycanda dəmir yolu nəqliyyatı ilə 2024-cü ildə 18,5 milyon ton yük, 8531,2 min sərnişin daşınıb. 2023-cü illə müqayisədə yük daşınmasında 1,4 faiz, sərnişin daşınmasında isə 18,7 faiz artım müşahidə olunub.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

Olanlardan, keçənlərdən

# Aşıq Alının aranıb-arınan şeirləri

*(əvvəli qəzetin 16 fevral tarixli sayında)*

**Məlum oldu ki, Pərinin Gədəbəy rayonunun Slavyanka kəndində məskunlaşan nəvəsi mərhum Səməd İsmayıloğlu həmin təcnisi Bərdənin Otuzikilər kəndinə, Telman Hüseynə göndərib. Təcnis aşağıdakı kimidir:**

**BİR AY ƏMƏNDƏ**

***Açanda gözümü cahani-cövrə
Fəhmim kara gəldi bir ay əməndə.
Müqəddəs sinənin mehmanı oldum,
Anladım anlamı bir aya mən də.***

***Rəqibdə bir məzac yaradan maram,
Vurram can evinə yara, danmaram,
Könül verdiyimi yara danmaram,
Bir ayə ondadır, bir ayə məndə.***

***Birdir bu aləmdə nizam, ikimi?!
Nizam olmaz dünya nizamı kimi.
Nəsimi, Füzuli, Nizami kimi
Alıyam, kaş yazam bir ayə mən də.***



***Mehrin məndən kəssə bir an,
dağda-daşda ara məni,
Xidmətində zay olanda,
atın aşkar nara məni.***

Gümanımız gələn ayrı bir mənbə isə Mürsəl İsmayıloğlu Həkimovun toplayıb yazıya aldığı “Xalqımızın deyimləri və duyumları” kitabı oldu. Mərhum alim vaxtilə Aşıq İmran Həsənov və Aşıq Mahmud Məmmədovun repertuarında “Aşıq Alının Türkiyə səfəri” dastanını yazıya alıb. Dastanda Aşıq Alının ustadı Ağ Aşığa həsr etdiyi “Məni” rədifli bir müxəmməsi və ata-anasına xitabən yazdığı daha iki qoşması (“Atacan”, “Anacan”) diqqətimizi çəkdi, hansı ki o şeirlər də “Nə qaldı” kitabında yoxdur. Haqqında bəhs edilən müxəmməsin ilk bəndini oxucuların nəzərinə çatdırırıq:

***Mən bimaram, ustam təbib,
gözlər məlhəm, çara məni,
Onsuz firavan dolansam,
görsün günü qara məni,
Çatdırıbdı qüdrətiylə,
hazır bəhrə-bara məni,***

Bundan sonra Aşıq Alının bir şeirindəki sözün mənasını internet üzərindən axtararkən “Şairlər yurdu – Aşıqlar diyarı” adlı bir kitabın (Bakı, Elm və təhsil, 2022) elektron versiyasıyla qarşılaşdım. Kitabda Aşıq Alının ağbulaqlı dostu Hacı Hüseynə həsr etdiyi qoşması da verilib. Şeir Hacı Hüseynin Aşıq Alıya at bağışlaması münasibətilə yazılıb:

***Bu dari-dünyada, Göyçə elində
Hörmətdə, izzətdə birsən, ay Hajı.
Sənə qismət verif xaliqi-sübhan,
Həqiqət yolunda şirsən, ay Hajı.***

***Başı yığıncaxlı, cövrü-cəfalı,
Qohuma-qonşuya, dosta vəfalı.
Qonaxlı-qaralı, Hatəm səxalı,
Süfrələr açmaxda birsən, ay Hajı...***

***Tanıyır el-ova düz insan səni,
Tutammaz şöhrətdə nə bəy-xan səni,
Azmı eyləmişəm imtahan səni?
Ərrər meydanında ərsən, ay Hajı.***

***Süfrəsi, dövləti, halal əməyi,
Yüzdüklər xərcdiyər, əsməz ürəyi.
Yetimlər köynəyi, yoxsul çörəyi,
Əvvəldən bir açıx dərsən, ay Hajı.***

***Yanında xəcalət bil Aşıx Alı,
Bağışda, sən allah, bu qeylü-qalı.
Seyiddən, molladan eylə daldalı,
Vallah ziyarətsən, pirsən, ay Hajı.***

“Xaqımızın deyimləri və duyumları” kitabında Mürsəl Həkimov Alının irsi haqqında yazır: “Biz əminik ki, saz-söz vurğunu, şeirlə nəfəs alan, qədirbilən oxucularımız Aşıq Alının hələ də itib-batmaq qorxusu olan gəraylı, qoşma, təcnis, divani, bayatı və müxəmməslərini sinədəftər bilənlərdən yazıya alsalar, aşıq ədəbiyyatının inkişafına xeyirxah xidmət göstərmiş olarlar”. Dəyərli oxucuların diqqətinə çatdırmaq istəyirik ki, bu günlərdə azman aşığın daha bir cinas gəraylısını əldə etmişik. Gəraylını 2013-cü ildə rəhmətlik Sərraf Şiruyə İctimai televiziyanın “Ozan” verilişində səsləndirib.

İlham Qəhrəman sonda dedi ki, beləliklə, bu gün Aşıq Alının indiyə qədər çap olunan kitablarının ən mükəmməlini çap etmək üçün onun müxtəlif mənbələrdən götürülmüş 9 şeiri, 6 qıfılbənd bayatısı və bir neçə digər nümunə artıq əlimizin altındadır. İnşallah, Haqq Aşığının yenilənmiş “Nə qaldı” kitabı tezliklə oxucuların ixtiyarına veriləcək.

Biz Aşıq Alının doğumunun 225 illik yubileyi ərəfəsində onun irsinin toplanıb günümzə daşınmasında az-çox xidmət göstərmiş Hüseyn Arifi, Hüseyn İsmayılovu, Qabil Zimistanoğlunu və Azərbaycan KP MK-nın qərarı ilə 1982-ci ildə çap olunan “Aşıq Alı” kitabını hazırlayanları minnətdarlıq hissiylə yad edirik. Ən azından, Aşıq Alının bizdən əvvəl çap edilən kitabları hansısa şeirin müqayisəli şəkildə düzgün bərpasına kömək edir.

***Əli NƏCƏFXANLI***
***XQ***

Yeni kitab

# Tələsən bir ömrün sənət dolayları

**Tanınmış şair-publisist Faiq Balabəyli neçə-neçə maraqlı poeziya, nəsr və publisistik kitabların müəllifi, AYB-nin üzvü, “Ədəbiyyat qəzeti”nin redaksiya heyətinin üzvü, Müstəqil.az saytının təsisçisi və baş redaktoru, gəmi kapitanı, “Dənizçilərə Sosial Dəstək” İctimai Birliyinin sədridir. Onun 60 illik yubileyinə həsr olunmuş “Bu ömür yaman tələsdi” adlı kitab isə bugünlərdə oxucuların ixtiyarına verilib.**

Yeni kitabda tələsən bir ömrün dolaylarındakı çox maraqlı məqamlar əksini tapıb. Elə kitabdakı yazıların birində deyildiyi kimi, Faiq Balabəyli 60 ildə mürəkkəb bir yaşam trayektoriyası cızıb, Cəlilabad rayonunun Sabirabad kəndindən ədəbiyyatın ağuşuna, ədəbiyyatdan dənizə, dənizdən mətbuata, arada bir dəfə Bayıla sözlə günah çəkməyə, sonradan hamısını bir yerdə yaşatmağa qədər yol qət edib. Ən doğrusunu da özü yazıb:

***Məni çağırdılar, yoxsa dayandım,
Məni oyatdılar, yoxsa oyandım,
Üz tutub keçdiyim yollara baxdım –
Yollar duman idi, yollar çən idi,***

***Səksəkə içində bir az duruxdum.
O yola, yolağa qayıtmaq çətin,
O yola, yolağa dönmək əbəsdi,
Bu ömür deyəsən yaman tələsdi.***

Şərif Ağayarın redaktorluğu ilə “Qanun” nəşriyyatında nəfis tərtibatla çap olunan kitabda xalq şairi Sabir Rüstəmxanlı, Milli Məclisin deputatı Fazil Mustafa, filologiya elmləri doktorları Vaqif Yusifli, Mahirə Nağıqızı, “Ədəbiyyat qəzeti”nin




baş redaktoru Azər Turan, şairin çoxsaylı qələmdaşları və dostlarının ürək sözləri, onun yaradıcılığı haqqında düşüncələri yer alıb.

Bütün ömrü söz dənizinin – sözlə dənizin qoynunda keçən Faiq Balabəylinin haqqında yazılmış bu kitabın da maraqla qarşılanacağına inanmaq istəyirik.

***XQ***

Bədii kollektivlərimiz

# Həmişəcavan “Nənələr”

## *Bu adı onlara Ulu öndər verib*



**Artıq 55 ildir ki, “Nənələr” folklor və rəqs qrupu bayram şənliklərində, el məclislərundə könül açan ifaları ilə insanlara sevinc bəxş edir. Özfəaliyyət kollektivi kimi, Lənkəran rayonunun Separadi kəndində yaranıb. Ansambl 6 nəfərdən ibarətdir: bacı olan 2 qaynana, onların 2 gəlini və gəlinlərin gəlinləri.**

Heç birinin musiqi təhsili yoxdur. Qaldı ki, valideynləri ifaçı olublar. Elə sənəti də uşaq vaxtı onlardan öyrəniblər. Qrup 1997-ci ilə kimi 4 bacıdan ibarət olub və “Bacılar” adı ilə fəaliyyət göstərib. “Nənələr” adını ilk dəfə həmin il Lənkəranda səfərdə olan ulu öndər Heydər Əliyev təklif edib. İfaçılar bu gözəl təklifi dərhal qəbul edərək, dönüb “Nənələr” olublar.

Mədəniyyət nazirliyi tərəfindən qrupa “Xalq kollektivi” adı verib. “Nənələr”in ifasında Azərbaycan və talış dillərində olan 100-ə qədər mahnı və bayatı var. Bunlara misal olaraq “Ay lolo”, “Gəl, gözəlim, naz eləmə”, “Mirvari gəlin”, “Almanı alma, gəlin”, “Yar bağa gəldi”, “Bulaq başında”, “Gəlin”, “Kinəlim-kinəlim”, “Maralı göndər bizə”, “Verin bizim gəlini”, “Əllərə xına çəkərlər”, “Yar-yar”, “Can gülüm”, “Bülbüllər oxuyur” mahnılarını göstərmək olar. Ən məşhuru, nənələrin bir növ “vizit kartı” saydığı “Ay lolo” mahnısıdır. Bu mahnı 2012-ci ildə “Grand” mükafatına layiq görülüb.

Qrupun üzvləri Xanımbacı Quliyeva, Qızbəs Əhədova, Gülbəzək Kərimova, Şərəf Məmmədova, Rübabə Kərimova və Bacıgül Rzayevadır. Ən yaşlı ifaçı Xanımbacı nənənin 91 yaşı var. Deyir ki, uşaq olanda analarımız bizi bir yerə yığıb və oxuyub-oynamışıq. İndinin özündə də belədir. Tez-tez bacılardan birinin evində, həyətində oturub məşq edirik. Mahnı oxuyan zaman iki bacının əlində barmaqla çalınan musiqi aləti – dəf olur. Bir çox bölgələrə toy məclislərində iştirak etmək üçün də dəvətlər alırıq.

“Nənələr” dəfələrlə respublika telekanallarının qonağı olub, həmçinin bütün musiqi festivallarına dəvət edilirlər. “Nənələr” 2021-ci ilin mayında Şuşada keçirilən “Xarıbülbül” musiqi festivalında da iştirak ediblər.

Onu da bildirək ki, indi Lənkəranda “Nənələr”lə bərabər, “Nəvələr” də var və tez-tez səhnəni bölüşürlər.

***Zəfər ORUCOĞLU***

Səməd Mövləvi – 125

**Qədim Naxçıvanın mədəniyyət və incəsənətində mühüm xidmətləri olan nəsillərdən biri Mövləvilərdir. Teatr aktyoru və rejissoru, Xalq artisti, mərhum Səməd Mövləvi də bu sayılıb-seçilən nəslin adını ləyaqətlə təmsil edib. Əbdülsəməd Mirzə Məhəmməd oğlu Mövləvi-Rzalı 20 fevral 1900-cü ildə Təbrizdə anadan olub, ilk təhsilini molla məktəbində alıb və 1916-cı ildə oranı bitirib. 1921-ci ildə Güney Azərbaycanda baş verən siyasi proseslərə görə Naxçıvana köçüb.**

# Naxçıvan Teatrının təbrizli aktyor-rejissoru

Xalq artisti Sidqi Ruhulla öz xatirələrində yazır: “Biz Təbrizdə Nəriman Nərimanovun “Nadir şah” faciəsini tamaşaya qoyduğumuz zaman qadın surəti Gülcahanı ifa edən tapılmadı. Mən həmin rolu “Rüşdiyyə” məktəbində təhsil alan gənc tələbə Səməd Mövləviyə tapşırdım. O, heç nədən çəkinmədən çox böyük bir cəsarətlə Gülcahan rolunu ifa etdi”.



O zamanlar rus inqilabının təsiri ilə İranda bir sıra mütərəqqi təşkilatlar yaradılmışdı ki, bunlardan biri də “Cəmiyyəti-xeyriyyə” idi. Səməd Mövləvi Təbrizdə ilk dəfə tamaşaya qoyulmuş “Ölülər” tragikomediyasında Şeyx Nəsrullah surətini böyük məharətlə oynayıb. Bu parlaq fitri istedadı görən Cəlil Məmmədquluzadə, Hüseyn Ərəblinski və başqaları sovet hakimiyyəti qurulduqdan sonra onun Naxçıvan səhnəsinə gətirilməsini təmin ediblər. 40 ildən artıq bir dövrdə Səməd Mövləvi 225-dən çox müxtəlif xarakterli obraz yaradıb, rejissorluq edib. Eyni zamanda, İrəvan Azərbaycan treatrının təşkilində zəhmətlər çəkib, qısa bir arada Tiflis Azərbaycan



teatrında da işləyib. Unudulmaz aktyorlar Həsən Səfərli, Əli Xəlilov, Rza İsfəndiyarlı, Rza Təhmasib, Kazım Ziya, Mirhəsən Mirişli ilə birlikdə daim ürəkdən alqışlanıb. İsa Musayev, Məmmədhüseyn Təhmasib və Sidqi Ruhulla ilə yaxın dost olub.

O, Cəfər Cabbarlının “Od gəlini”, “1905-ci ildə”, Hüseyn Cavidin “Şeyx Sənan”, “İblis”, “Şeyda”, “Uçurum”, “Dəli knyaz”, M.F.Axundovun “Hacı Qara”, Şəmsəddin Saminin “Dəmirçi gavə”, gürcü yazıçısı Şanşiaşvilinin “Anzor”, Şekspirin “Hamlet”, “Otello”, Şillerin “Qaçaqlar”, “Məkr və məhəbbət”, hind yazıçısı Hüseyn Fitrətin “Hind ixtilaçıları”, rus klassiklərindən Qoqolun “Müfəttiş”, Ostrovskinin “Günahsız müqəssirlər”, Şkvarkinin “Özgə uşağı” pyeslərini uğurla tamaşaya qoyub və özü də ayrı-ayrı rollarda çıxış edib.

AMEA Naxçıvan Bölməsinin əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Musa Rəhimoğlu yazır ki, bir gün gənc Səmədin tarzən dostu Tapdıq Hüseynovgilin qonşu həyətində toy imiş. Tapdıq evlərinin balaxanasında (mansarda) onunla nərd oynayan dostunun fikrinin-zikrinin toyda rəqs edən qızlardan birində olduğunu sezərək, “O qız komissar İbrahim bəyin baldızıdır, Gürcüstandan gəlib, ehtiyatlı ol”, – deyir. Amma Səmədin həvəsi ötəri olmur, o, Nadejda adlı həmin gözəl qıza ürəkdən vurulur. Tapdıq və digər dostları bu işi yoluna qoya bilirlər. Məsələni Naxçıvanda İbrahim bəyin ailəsinə deyirlər, sonra uzaq Kutaisiyə gedib Nadejdanı Səmədə alırlar.

Səməd Mövləvi ilə Nadejda Qaramanovanın (Qəhrəmanova) qurduğu ailə Naxçıvanda öz nümunəviliyi ilə tanınıb. Onlar şəhərin mərkəzindəki ikimərtəbəli binanın birinci qatında yaşayıblar. Səməd Mövləvi ömrünün axırına – 1962-ci il fevralın 3-nə kimi bu evdə yaşayıb. Ona təzə mənzil vermək istəyəndə deyirmiş ki, yox, buranı çox sevirəm, düşərli evdir. Sonralar həmin mənzildə onun oğlu, Xalq artisti Tofiq Mövləvi yaşayıb. Nadejda xanım əvvəlcə Naxçıvan teatrında əlbisə sexində işləyib. Bir müddət keçincə uşaqları Natella, Tofiq və Turanın qayğısını çəkmək üçün evdarlıq etməli olub.

Bir gün də qoltuğunda bir qovluq dekorasiya şəkilləri və geyim eskizləri olan gənc bir rəssam Naxçıvan teatrına gələrək işləmək istədiyini söyləyir. Eskizlərlə tanış olan aktyor-rejissor Səməd Mövləvi gəncin istedadını yüksək qiymətləndirir və hazırladığı “Ölülər” tamaşasının rəssam işini tamamilə ona həvalə edir. İlk sınaq uğurlu keçir və Səməd müəllimin xeyir-duası ilə həmin gənc icraçı rəssam kimi teatrda işə qəbul edilir. Bu, gələcəyin tanınmış teatr rəssamı, orada çalışdığı 44 ildə 100-dən artıq tamaşanın quuluşçu rəssamı olacaq görkəmli pedaqoq və publisist, Əməkdar incəsənət xadimi Məmməd Qasımov idi.

Yanvarın 29-da Məmməd Qasımovun 100, bu gün isə Səməd Mövləvinin 125 illik yubileyidir. Üstündən 82 il keçən həmin olayı isə bizə mərhum Məmməd müəllimin oğlu – AMEA Naxçıvan Bölməsində çalışan, Naxçıvan teatrı haqqında da elmi əsərlər yazan sənətşünaslıq üzrə fəlsəfə doktoru Ələkbər Qasımov danışdı və Səməd müəllimin bir çox gənc istedada yaxşılıqlar etdiyini bildirdi.

Görkəmli teatr xadimi, həssas insan Səməd Mövləvinin həm də gözəl səsi olub. Üzeyir Hacıbəylinin məşhur operasından Məcnunun ariyasını çox mükəmməl oxuyurmuş. İndi onun adını daşıyan nəvəsi Əbdülsəməd fortepianoda babasının oxuduğu ariyanı ürəyəyatımlı şəkildə səsləndirir...

Həyat, beləcə, davam edir. Unudulmazların isə həmişə yeri görünür.

***Ə.DOSTƏLİ***
***XQ***

# Tələbələrin akademiya dərsi



**AMEA-nın Tarix və Etnologiya İnstitutunda Qərbi Kaspi Universiteti, Azərbaycan Universiteti və Bakı Slavyan Universitetinin tələbələrinin istehsalat təcrübəsi başlayıb.**

İnstitutun direktoru, professor Kərim Şükürov tələbələrlə görüşərək rəhbərlik etdiyi elmi-tədqiqat müəssisəsinin tarixi, aparılan tədqiqatlar, institutun planları haqqında məlumat verib. Qeyd edib ki, istehsalat təcrübələri gələcəkdə həyatını elmə bağlayacaq gənclərin seçilməsi, institutun gəncləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Kərim Şükürov fevral–may aylarını əhatə edən istehsalat təcrübəsi zamanı tarix elminə xüsusi marağı olan tələbələrin diqqətdə saxlanılacağını, gələcəkdə onların elmi fəaliyyətlə məşğul olması üçün dəstək göstəriləcəyini vurğulayıb.

Bildirilib ki, Tarix və Etnologiya İnstitutunda bu prosesə diqqətlə yanaşılır. Həm universitetlərdən, həm də institutdan təyin olunan təcrübə rəhbərləri birgə işləyəcək, tələbələrlə yüksək səviyyəli iş qurulacaq.

***XQ***

Beynəlxalq həyat

# Rusiya–Ukrayna savaşı: diplomatlar fəallaşır

**Rusiyanın Ukraynaya qarşı apardığı ağır hərbi əməliyyatlar davam etdiyi bir vaxtda diplomatların tərəflər arasında sülhün əldə olunması üçün fəaliyyətə keçmələri hiss olunur. Bu, əlbəttə, müsbət hal kimi dəyərləndirilə bilər.**



Son günlər ABŞ, Türkiyə, Səudiyyə Ərəbistanı və digər dövlətlərin Ukrayna böhranının həlli naminə səyləri razılıq doğurur. Unutmaq olmaz ki, ən kövrək sülh belə "silahların danışması"ndan qat-qat yaxşıdır. Sülhün yolu hamar deyil, çətindir, amma bu, şərəfli missiyadır.

ABŞ Prezidenti Trampın təşəbbüsü ilə 2 gün əvvəl bu ölkənin dövlət katibi Marko Rubio, Ağ evin milli təhlükəsizlik müşaviri Mayk Valz və Birləşmiş Ştatların Yaxın Şərq üzrə xüsusi nümayəndəsi Stiv Vitkoff Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyad şəhərində Rusiya rəsmiləri ilə Ukrayna böhranının həlli ilə bağlı müzakirələr aparıblar.

Bu hadisə qlobal medianın diqqət mərkəzindədir. KİV mənsubları qeyd ediblər ki, paytaxtın Diriyah sarayında keçirilən görüş 4 saat yarım çəkib və hər hansı bir sənədin qəbul edilməsi ilə başa çatmayıb. Bununla bərabər, ABŞ və Rusiyanın nümayəndə heyətləri səfirliklər səviyyəsində əlaqələri genişləndirəcəklərini vəd ediblər.

Ər-Riyaddakı görüşün əsas məqsədi Ukrayna böhranının həlli yollarını tapmaqdır. Bu, heç də göründüyü qədər asan məsələ deyil. Ona görə ki, ağır savaşa cəlb olunan tərəflərin sülhlə bağlı planları kəskin ziddiyyət təşkil edir. Ukrayna atəşkəsin elan olunmasına razıdır, amma ABŞ-dan suverenliyi üçün etibarlı zəmanət istəyir.

Moskvanın sülhlə bağlı tələbi isə iddialıdır. Rusiya istərdi ki, NATO 1997-ci il sərhədlərinə qədər geri çəkilsin. Bu tələb rəsmən bəyan edilməyib, amma mediaya sızdırılıb. Tərəflərin öz tələblərini getdikcə "yumşaldacağı" gözlənilir. Diplomatiya qarşılıqlı güzəştlər deməkdir, əks təqdirdə, tarixdə heç bir saziş bağlamaq olmazdı.

ABŞ-ın dövlət katibi Marko Rubio peşəkar diplomatdır. Bu yaxınlarda onun bu posta namizədliyi Senatda, demək olar ki, yekdilliklə təsdiq edilib. Ər-Riyaddakı danışıqlarda ABŞ nümayəndə heyətinə məhz Marko Rubio başçılıq edir. O, jurnalistlərə bildirib ki, Vaşinqton Moskvanın Kiyevə qarşı 3 ildir apardığı müharibəyə son qoymaq üçün "ədalətli" və "davamlı" həll yolu üzərində işləyir, lakin həm Moskva, həm Kiyev sülhə nail olmaq üçün güzəştə getməli olacaqlar.

"Baş diplomat"ın sözlərinə görə, Vaşinqtonun məqsədi bu münaqişəyə ədalətli, daimi, uzunmüddətli və bütün tərəflər üçün məqbul bir şəkildə son qoymaqdır. Rubio sonra vurğulayıb ki, Ukrayna və Avropa ölkələri də müharibəni dayandırmaq üçün danışıqlara cəlb edilməlidir.

Qeyd edək ki, Avropa dövlətləri Ukrayna böhranı ilə bağlı ABŞ–Rusiya danışıqlarına dəvət olunmayıblar və bundan çox narazıdırlar. Ukrayna Prezidenti Zelenski isə dəfələrlə rəsmi Kiyevin razılığı olmadan hər hansı bir müzakirənin nəticələrini qəbul etməyəcəyini bildirib.

Prezident Tramp Ər-Riyadda keçirilən danışıqları "çox yaxşı" adlandırıb. O, rusiyalı həmkarı Putinlə görüşünün fevralın sonuna qədər baş tuta biləcəyini də qeyd edib. Lakin bu məsələ ilə bağlı əlavə şərh verməyib.

Kremlin sözçüsü Dmitri Peskov hesab edir ki, Ər-Riyadda ABŞ və Rusiya diplomatları Ukraynada münaqişənin sülh yolu ilə nizamlanması istiqamətində çox mühüm addım atıblar. "Hər iki tərəfdən lazımi siyasi iradə nümayiş etdirilib", – deyə o, bildirib.

"Reuters" xəbər verir ki, Fransa Ukrayna və Avropanın təhlükəsizliyi ilə bağlı ikinci təcili sammit keçirməyi planlaşdırır. Bu dəfə sammitə Avropanın daha çox ölkəsi (Norveç, Litva, Estoniya, Latviya, Çexiya, Yunanıstan, Finlandiya, Ruminiya, İsveç və Belçika) və NATO müttəfiqi olan Kanada da dəvət olunub. Həmçinin agentlik bəzi ölkələrin sammitə onlayn qoşula biləcəyini istisna etməyib.

Ukrayna böhranının həlli üçün Türkiyə yenidən öz xidmətini təklif edir. Yeri gəlmişkən, fevralın 18-də Prezident Zelenski Ankarada rəsmi səfərdə olub. Prezident Ərdoğan və ukraynalı ali qonaq böhranın aradan qaldırılması ilə bağlı geniş müzakirələr aparıblar. Danışıqlardan sonra liderlər mətbubata birlikdə vacib açıqlamalar veriblər.

Türkiyə Prezidenti deyib ki, onun ölkəsi müharibənin sülh yolu ilə bitməsi üçün Ukrayna, Rusiya və ABŞ nümayəndə heyətləri arasında növbəti mümkün danışıqlar üçün ən uyğun məkansır. Ankara bu məsələdə tərəflərə tam dəstək verməyə hazırdır.

R.T.Ərdoğan vurğulayıb ki, çox sayda insan itkisinə səbəb olan Rusiya–Ukrayna müharibəsinə son qoymaq üçün tərəflər, ilk növbədə, təcili surətdə atəşkəs elan etməlidirlər. "Sülhdə uduazan olmur", – deyib Ərdoğan. "Dünya ictimaiyyəti hər iki dövlətin rəhbərindən müharibəni bitirmələrini istəyir".

Ankara Ukraynada ağı döyüşlərin başladığı ilk gündən tərəflər arasında sülh danışıqlarının aparılması üçün səylər göstərib. Yəqin ki, xatırlayırsınız, Rusiya və Ukrayna nümayəndə heyətləri 2022-ci ilin mayında İstanbulda bir araya gəlmişdilər. O zaman tərəflər sülhə də çox yaxın olublar. Amma Qərbdə müəyyən güclər buna mane oldular.

Qeyd etmək lazımdır ki, Ankara Rusiya tərəfindən hərbi müdaxiləyə məruz qalan Kiyevə hərtərəfli dəstək göstərir. Türkiyə Qara dəniz vasitəsilə Ukrayna taxılının dünya bazarlarına çatdırılmasını təmin edib. Ukrayna dövləti bunu unutmur. Prezident Zelenski bu faktı minnətdarlıq hissilə xatırladıb.

Müharibənin yaratdığı çətinliklərə baxmayaraq, ötən il Türkiyə ilə Ukrayna arasında ticarət dövriyyəsinin həcmi 10 milyard dolara çatıb. Türkiyə şirkətləri müharibə bitəndən sonra Ukraynada aparılacaq geniş tikinti-quruculuq və bərpa işlərində də fəal iştirak etməyə hazırdır.

R.T.Ərdoğan Krım tatarlarının hüquqlarını cəsarətlə müdafiə etdiyi üçün Zelenskiyə minnətdarlıq edib. Ukrayna dövləti bir müddət əvvəl Bəşər Əsəd rejimini devirən Suriya xalqına təmənnasız olaraq 30 min ton taxıl yardımı göndərib. Bu humanist jest rəsmi Ankarada məmnunluq doğurub.

Prezident Zelenski Ankaradakı çıxışında ölkəsinin ərazi bütövlüyünü birmənalı olaraq dəstəklədiyi üçün Türkiyə dövlətinə və xalqına, eləcə də "əziz dostum və qardaşım" deyə müraciət etdiyi Prezident Rəcəb Tayyib Ərdoğana dərin minnətdarlıq edib. Vurğulayıb ki, Ukrayna xalqının azad, sülh şəraitində yaşayıb-yaratmaq haqqı var. Ttürk xalqının problemin həllində haqqı və ədaləti dəstəkləməsi Ukraynanın gücünü daha da artırır.

Dünən Belçikanın müdafiə naziri Teo Franken bildirib ki, onun ölkəsi müəyyən şərtlərlə Ukraynaya qoşun göndərməyə açıqdır. Onun sözlərinə görə, regionda asayişi qorumaq üçün hərbçilərin göndərilməsi yalnız Rusiya və Ukrayna arasında sülh müqaviləsi bağlandıqdan sonra mümkündür. Bundan əvvəl isə Böyük Britaniya Ukraynaya hərbi qüvvələr göndərməyə hazır olduğunu bildirmişdi.

Ukraynaya dəstək verənlər yüksək humanizm prinsiplərindən çıxış edirlər. Bu, alqışa layiq haldır. Lakin el arasında belə bir deyim var: yüz mamaça yığışsa da, əsas güc doğana düşür. Etiraf edək ki, savaşın əsas ağırlığı qəhrəman Ukrayna xalqının üzərinə düşür. Bu xalq özündən qat-qat güclü olan bir dövlətin hərbi maşını ilə ölüm-dirim mücadiləsi aparır və geri çəkilmir.

***Məsaim ABDULLAYEV***
***XQ***

# Aqrar Universitetdə əməkdaşlıq müzakirəsi

**Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov, Riyaziyyat və Mexanika İnstitutunun direktoru, professor Misir Mərdanov, Azərbaycanda Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov, təhsil üzrə ekspert, fəlsəfə doktoru Etibar Əliyev və iqtisadçı alimlər Azərbaycan Dövlət Aqrar Universitetində olublar.**




Universitetin professor-müəllim heyəti ilə görüşdə birgə əməkdaşlıq çərçivəsində həyata keçirilə biləcək layihələr müzakirə olunub. ADAU-nun rektoru Zəfər Qurbanov qonaqları salamlayaraq, bir əsrlik tarixi olan bu ali təhsil ocağının maddi-texniki bazası və qarşıya qoyduğu hədəflər barədə ətraflı məlumat verib.

Ədalət Muradov çıxışında tədqiqatların mübadiləsi, yüksək reytinqli jurnallarda məqalə çapı, beynəlxalq nüfuzlu reytinq siyahılarında qərarlaşmaq üçün hədəflər barədə danışıb.

Misir Mərdanov bildirib ki, Aqrar Universitet dövlətin prioritet sahələrindən olan kənd təsərrüfatı üçün kadr hazırlayan ali təhsil müəssisəsi kimi daim diqqət mərkəzindədir.

Nizami Cəfərov isə deyib ki, qeyri-neft sektorunda böyük rolu olan kənd təsərrüfatı ixtisasları üzrə mütəxəssis hazırlığının ölkəmiz üçün mühüm əhəmiyyəti danılmazdır. Sonda universitetə xatirə kitabları təqdim olunub.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***
**Gəncə**

# 212 nəfər də doğma Cəbrayılına qovuşdu

**Rəşadətli ordumuzun şanlı qələbələri sayəsində azadlığına qovuşmuş Qarabağda və Şərqi Zəngəzurda bərpa-quruculuq işləri getdikcə daha geniş vüsət alır, otuz ildən artıq Vətən həsrəti ilə yaşamış keçmiş məcburi köçkünlərin köç karvanları bir-birinin ardınca əzəli və əbədi torpaqlarımıza istiqamət götürür. Bir vaxtlar göz yaşları içində ev-eşiklərindən didərgin düşmüş insanlar bu gün sevinə-sevinə daimi yaşamaq üçün öz ata-baba yurdlarına qayıdırlar.**



Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq fevralın 19-da daha 212 keçmiş məcburi köçkünün həsrətinə son qoyuldu, 37 ailə doğma Cəbrayılına qayıtdı. "Xalq qəzeti" olaraq köç həyəcanları davam edən, yeni evlərində yerləşməkdə olan cəbrayıllıların bir neçəsi ilə əlaqə saxlayıb onların sevinclərinə şərik olduq, təəssüratlarını öyrəndik. Doqquz aylıq körpə ikən anasının qucağında doğma yurdunu tərk etmiş Könül Vəliyeva bu gün Cəbrayıla həyat yoldaşı və 2 övladı ilə qayıdıb. Bizimlə söhbətində bildirdi ki, illərlə bu xoşbəxt günlərin xəyalı ilə təsəlli tapıblar:

– Mən Cəbrayıl rayon mərkəzi xəstəxanasında işləyirəm. Ailəmlə birlikdə uzun müddət idi Biləsuvar rayonunda məskunlaşmışdıq. Bu gündən isə öz doğma Cəbrayılımızda, yeni evimizdə yaşayacağıq. Var olsun dövlətimiz, üçotaqlı mənzillə təmin olunmuşuq, bizim üçün hər bir şərait yaradılıb. Ən əsası isə odur ki, daha məcburi köçkün deyilik, övladlarım azad torpağımızda böyüyəcəklər. Allah bizə bu günləri yaşadan möhtərəm Prezidentimizi qorusun! Çox xoşbəxtik!

Hazırda yeni mənzillərində yüklərini yerləşdirməklə məşğul olan Rəhimovlar ailəsi Cəbrayılın daimi sakini olmağın sevincini yaşayır. 70 yaşlı Xuraman Rəhimova öz təəssüratlarını dilə gətirdi:

– Bu yerlərdən ağlaya-ağlaya çıxmışdım. Geri dönəndə də gözlərim yaşardı. Ancaq budəfəki göz yaşları sevinc göz yaşları idi. Hisslərimi sözlə ifadə edə bilmirəm. Övladlarımla, nəvələrimlə ata yurduma – Cəbrayıla qayıtmışam. Allaha şükür edirəm ki, bu günləri görməyi mənə qismət etdi. Allah şəhidlərimizə rəhmət eləsin, Ali Baş Komandanımızı, xalqımızı, ordumuzu qorusun! Yaşadığımız bu xoşbəxt anlar üçün Vətənimizin azadlığı naminə əməyi olan hər bir kəsə borcluyuq!



Qeyd edək ki, Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində bundan cəmi 3 gün əvvəl, fevralın 17-də də Cəbrayıl şəhərinə növbəti köç baş tutub, 205 nəfərdən ibarət 42 ailə məcburi köçkünlüklə əbədi olaraq vidalaşıb. Ümumilikdə isə bugünədək Cəbrayıl şəhərinə 2 min 110 nəfərin (479 ailə) qayıdışı təmin olunub.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

# "Xəzər evi" ekoloji QHT-ləri birləşdirir

**Strateji Kommunikasiyalar Mərkəzində "İctimaiyyətlə Əlaqələrin İnkişafına Kömək" İctimai Birliyi "Xəzər evi": Xəzəryanı ölkələrin ekoloji təşkilatlarının platforması" layihəsi əsasında tədbir keçirilib.**




Layihənin müəllifi, birliyinin sədri, Bakı Slavyan Universitetinin professoru, Əməkdar jurnalist Şəlalə Həsənova bildirib ki, Xəzəryani ölkələrin QHT-lərini birləşdirən Evin – https://caspianhouse.org/ ünvanlı virtual platformanın 48 elektron qovluğunda 480 fayl yerləşdirilib. Burada Azərbaycan, Qazaxıstan, Rusiya və Türkmənistanın ekoloji siyasəti, yaşıl iqtisadiyyatı, ətraf mühit problemləri, dayanıqlı inkişaf məqsədləri, vətəndaş cəmiyyəti, ekoturizmin təşkili, xalq yaradıcılığı haqqında məlumatlar yer alıb.

Qeyd olunub ki, Xəzəryanı ölkələrin ictimai fəallarının interaktiv əlaqəsi və bloqlar üçün də virtual müstəvi nəzərdə tutulub. Ş.Həsənova "Xəzəryanı ölkələrin yaşıl iqtisadiyyatı" adlı muzey barədə danışaraq vurğulayıb ki, burada Azərbaycanın işğaldan azad olunmuş ərazilərində yaşıl iqtisadiyyatın inkişafı, Ağalı kəndi, günəş, su, külək stansiyaları barədə ətraflı məlumat verilir.

Daha sonra Azərbaycan Diasporla İş üzrə Dövlət Komitəsinin məsul işçisi Billurə Ələkbərova, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin nümayəndəsi Günay Vəliyeva layihənin əhəmiyyətindən və mövzunun aktuallığından danışıblar. Müzakirələrin davamında mövzu ətrafında ekoloqların, ictimaiyyət nümayəndələrinin iştirakı ilə fikir mübadiləsi aparılıb.

Sonda Xəzərin ekoloji problemlərindən bəhs edilən videoçarx və 360 VR videogörüntülər nümayiş olunub.

***Anar ƏLİ***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 38 (30732) 20 fevral 2025-ci il, cümə axşamı

İdman

# Uşaq futbolçularımızın Minsk qələbəsi

**17 yaşadək futbolçulardan ibarət Azərbaycan millisi Belarusun paytaxtı Minskdə təşkil olunan İnkişaf Kubokunda 3-cü oyununu keçirib.**



U-17 B qrupundakı son görüşündə Qazaxıstanın müvafiq yaş qrupundan ibarət komandası ilə qarşılaşıb. Matç Azərbaycan yığmasının 2:1 hesablı əzmkar qələbəsi ilə başa çatıb. Bu nəticədən sonra milli komanda 6 xalla öz qrupunda ilk pilləyə yüksəlib. Qrup qalibinin adına Rusiya – İran matçından sonra aydınlıq gələcək.

İlham Yadullayevin baş məşqçisi olduğu kollektiv turnir çərçivəsində keçirdiyi ilk iki oyunda Rusiyaya (0:3) məğlub olub, İrana (1:0) qalib gəlib.

## Həvəskarların xizək yarışı




**Türk Dövlətlərinin Xizək Kurortları İttifaqının təşkilatçılığı və Türk Dövlətləri Təşkilatının dəstəyi ilə Özbəkistanın Amirsoy Dağ Kurortunda həvəskarlar arasında xizək yarışı üzrə ilk Türk Dövlətləri Kuboku təşkil edilib.**

Qış İdman Növləri Federasiyasından XQ-yə verilən məlumata görə, yarışda Azərbaycanın həvəskar xizəkçiləri də iştirak ediblər. Yekun nəticələrə görə, təmsilçilərimiz Ceyhun Balametov qızıl, Famil Valimotov isə bürünc medal qazanıblar. Turnirə Azərbaycan, Özbəkistan, Qazaxıstan və Türkiyədən müxtəlif yaş kateqoriyalarından olan 50-yə yaxın xizəkçi qatılıb.

Turnirin sonunda qaliblər kubok və medallarla təltif olunublar.

Qeyd edək ki, Türk Dövlətlərinin Xizək Kurortları İttifaqına Azərbaycanın Şahdağ, Özbəkistanın Amirsoy, Qazaxıstanın Şimbulak və Türkiyənin Uludağ Dağ kurortları daxildir.

## 3 boksçumuz yarımfinalda

**Azərbaycan millisinin 3 boksçusu Rumıniyada keçirilən beynəlxalq turnirdə uğurlu çıxışını davam etdirir. Breila şəhərində gənclər arasında təşkil olunan "Drakula Open"də yarışda yığmamızın 3 üzvü yarımfinal mərhələsinə yüksəlib.**



Komandamızın heyətində Baqir Əmirxanlı (60 kq) David Barbuya (Rumıniya) 3-cü, Valeh Eyvazlı (67 kq) Rares Pursareaya (Rumıniya) 2-ci raundda tam üstünlüklə qalib gəlib. Mircəlal Mirağayevin (80 kq) rəqibi Zaxar Doroşenko (Ukrayna) isə döyüşə gəlməyib və təmsilçimiz mərhələ adlayıb.

Hər 3 boksçu yarımfinala yüksəlməklə özləri üçün, ən azı, bürünc medalı da təmin ediblər.

Qeyd edək ki, "Drakula Open"də final döyüşləri fevralın 23-də olacaq.

*Leyla QURBANOVA*
*XQ*

Şəxsi muzeylər

# Zamanın aynası, vaxtın ölçüsü...

## *Bu nadir saxlancda 3 minədək saat uyuyur*

**İçəri ayaq basan kimi səni bir-birindən fərqli və ahəngdar səslər qarşılayır: taq-taraq-taq... çıq-çıq-çıq...Söhbət hansısa musiqi məkanından getmir, Bakının Maştağa qəsəbəsində el arasında "Saat muzeyi" adlandırılan otaqdan gedir. Bura, həqiqətən də, ruhən dincəlmək üçün çox romantik və xoş təsir bağışlayır. Saat səslərinin sehrinə düşürsən. Hər saat bir xatirə, hər saat bir aləmdir.**



Divar saatlarının səsinin əsəbləri sakitləşdiriyini deyirlər. Hər saatın da özünəməxsus səsi var. Burada hansı saatların səsini eşitmək olar: Kreml "kurantları"nın səsini xatırladan saat zəngi, yunan mifologiyasının illüstrasiyasından hazırlanmış saat, kilsə zənglərini üçün olan saat...Divar, qol, cib, qum saatları, stolüstü saatlar, zəngli saatlar, qədim saatlar... İsveç, Fransa, Almaniya, İran, Rusiyanın və digər ölkələrin də saatları var.

Muzeyin yaradıcısı Ramiz Əliyevdir. Ötən əsrin 70-ci illərinin axırında texniki peşə məktəblərindən Rusiyaya oxumağa göndərilən 20-dək gəncin arasında o da olub.Yekaterinburq Mühəndis Pedaqoji İnstitutunu bitirib. Bakının Dərnəgül qəsəbəsindəki 67 nömrəli liseydə peşə istehsalat təlimi ustası, müəllim, baş usta və tədris-istehsalat emalatxanasının müdiri olub, oradan da təqaüdə çıxıb.

Əslində, onda lap əvvəldən elektronikaya böyük maraq olub. Böyük oğlu Ramin dünyaya gələndə körpənin beşiyinə quraşdırdığı xüsusi mexanizm uşaq ağlayanda hərəkətə gəlir və beşiyi yırğalayırdı. Hələ 40 il əvvəl o, televizoru məsafədən idarə etmək üçün idarəedici yaradıb. Yaxud evdəki pərdələrin açılıb-bağlanılması, giriş qapıları üçün müxtəlif səsli zənglər düzəldib.

Kolleksioner məlumat verir: "Atam Əlimirzə çox yaxşı saatsaz idi. Onun vəfatından sonra xatirəsini yaşatmağı fikirləşdim. Saat kolleksiyası yığmağa başladım". "Hər hansı saatın işləməsi üçün hansısa enerji mənbəyi olmalıdır. Yayla, istilik mənbəyi ilə, elektriklə, batareya ilə işləyənləri var. Ən müxtəlif ünvanlardan yığıb topladığım saatların içərisində hər cür üsulla işləyənləri var".

Onun yığıb topladığı kolleksiyada mexanizmlə, batareya, şamla işləyən, hətta qum saatları da var. O, özünün düzəltdiyi və yüklə işləyən bir saatı nümayiş etdirərək deyir: "Yüklər yuxarı qalxır və onun ağırlığı sayəsində saat mexanizmi işə düşür, təxminən bir həftə işləyəndən sonra yüklər aşağı düşür və onu yenidən yuxarı qaldırmaq lazım gəlir".

Ramiz Əliyev, təxminən, 30 ilə yaxın müddətdə saat eksponatları toplamaqla məşğul olub. Eləsi var pay veriblər, eləsi var pulla alıb, eləsi var yayarsız halda olub. Onların çoxuna özü ikinci həyat verib. Beləliklə, kolleksiyasında 3 minə yaxın saat toplanıb. Onlardan 1500-dən çoxu kişi və qadın qol saatı, 700-ə yaxını cib saatı, 200-ü divar saatı və digər saatlardır.

Kolleksiya saatları arasında çox kiçik, üzük boyda olan kiçik qadın qol saatı, "Gül bağçalar" adlanan musiqi nömrəsinin çalındığı saat da var. Burada mexanizmi taxtadan olan və tarixi 1800-cü ilə aid olan xeyli saat nümayiş olunur. Eləsi var ki, 150-200, eləsi də var 100 il əvvəlin məhsuludur. İplərin kəfgir rolu oynadığı saatlar xüsusilə böyük maraq doğurur. Təbii ki, onlar qədim saatlardır.

Burada heç yerdə olmayan saatlarla da üzləşmək olar. Həmin saatları kolleksioner özü düzəldib. Məsələn, saatlardan biri hər 15 dəqiqədən bir zəng çalır, ayı, ayın tarixini və həftənin gününü göstərir.

Önun fantaziyasına məxsus olan digər bir saat da maraq doğurur. Saatın ortasında əlində çubuqlar olan xanım təsviri var. Əlində çubuqlar əqrəbləri əvəz edir, onlardan biri saatı, digəri isə dəqiqəni göstərir.

Kolleksiyadakı cib saatları da baxımlı və maraqlıdır. Xromometri, repitri, gün və ay göstəricisi olan cib saatları çox maraqlıdır. Həmin saatların əksər hissəsinin içərisi gümüşdəndir. Divar saatlarının arasında hətta quş səsi çıxaranı da var. O da maraqlıdır ki, sayı minlərlə ölçülən mexanizmlərin içərisində biri o birinin təkrarı olan bir saat da yoxdur. Eyni markalı saatlar olsa da, hər birinin özünəməxsusluğu və fərqliliyi var.

İçərisində Mustafa Kamal Atatürkün, ulu öndər Heydər Əliyevin, marşal Jukovun və ayətüllah Xomeyninin şəkilləri olan saatları da burada görmək mümkündür.

"İndi hər yerdə "yaşıl enerji"dən, alternativ mənbələrdən geniş istifadə etməklə bağlı axtarışlar aparılır. Mən də Günəş, külək və su enerjisi ilə işləyən saat mexanizmləri düzəltmək barədə düşünürəm. Daha bir arzum isə yaratdığım kolleksiyaya muzey statusu almaqdır. Bunu edə bilsəm, bu, ölkəmizdə ilk "Saat muzeyi" olacaq", – deyə Ramiz Əliyev arzusunu ifadə edir.

Hərəsinin öz iş prinsipi və səsi olan saatlar dünyasından ayrılmaq çətindir. Hətta onu tərk edəndən sonra da könülə, ruha rahatlıq gətirən səslər qulağımda səslənir: tıq-tıq-tıq, çıq-çıq-çıq...

*Süleyman QARADAĞLI*

XQ-nin rəsm qalereyası

# Toğrul Nərimanbəyovun "Şuşa" nağılı

**Azərbaycan təsviri sənətinin görkəmli nümayəndəsi Toğrul Nərimanbəyov öz əsərlərində milli dəyərləri, tarixi yaddaşı və vətən sevgisini incə fırça ustalığı ilə canlandıran sənətkarlardandır. Onun "Şuşa" tablosu da bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Bu əsər təkcə Şuşanın mənzərəsini deyil, həm də şəhərin keçmişini, mədəni irsini və Azərbaycan xalqının onunla bağlı duyğularını əks etdirən dəyərli sənət incilərindən biridir.**



Rəssamın "Şuşa" tablosu parlaq və isti boyalarla işlənmişdir. Burada rəssam Şuşanın təbiətini, onun dağlarını, qala divarlarını və tarixi abidələrini canlı rəng çalarları ilə təsvir edib. Tabloda işıq və kölgələrin oynadığı harmonik rəng ahəngi Şuşanın mistik və eyni zamanda, möhtəşəm ruhunu üzə çıxarır. Nərimanbəyovun özünəməxsus üslubu ilə işlənmiş bu tablo təkcə vizual gözəlliyi deyil, həm də Şuşanın keçmişindən gələcəyə uzanan dərin mənəvi körpünü tamaşaçıya hiss etdirir.

Bu tablo Şuşanın işğal altında olduğu bir dövrdə, 2010-cu ildə çəkilmişdir və rəssamın doğma torpağına olan həsrətini əks etdirmişdir.

Şuşa yalnız bir şəhər deyil, Azərbaycanın mədəni ruhunun beşiyidir. Bu gün Şuşa azaddır və xalqımız öz dədə-baba torpağına qayıdıb. Nərimanbəyovun tablosu isə həmin azadlığın sənətdəki əks-sədası kimi əbədi qalacaq və gələcək nəsillərə Şuşanın ruhunu ötürməyə davam edəcək.

*Leyla HADİ,*
*tələbə-jurnalist*

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti santexnika mallarının satın alınması üçün

*Açıq Tender Elan Edir*

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin santexnika mallarının satın alınması üçün açıq tenderində iştirakçılar imran.k.mammadov@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 4 mart 2025-ci il, saat 17.00-dəkdir.

Prosedur üzrə əlaqələndirici şəxs – İmran Məmmədov.

Mütəxəssis, imran.k.mammadov@azal.az, əlaqə telefonu (+99412) 4972600, daxili 5803.

Bildiriş

"Xalq qəzeti"nin 31 yanvar 2025-ci il tarixli nömrəsində dərc edilmiş "Azinşaat Servis" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağının 2025-ci il martın 17-də keçirilməsi nəzərdə tutulan yığıncaq təxirə salınmışdır. Yığıncağın gələcəkdə keçirilməsi barədə səhmdarlara əlavə məlumat veriləcəkdir.

*ASC-nin sədri*

Hava

# Qar yağacaq, külək və duman olacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, fevralın 20-də Bakıda və Abşeron yarımadasında arabir yağıntılı olacağı, səhərdən bəzi yerlərdə sulu qar, axşam isə qara keçəcəyi gözlənilir. Yarımadanın ayrı-ayrı yerlərində intensivləşəcəyi ehtimalı var. Şimal-qərb küləyinin arabir güclənəcəyi gözlənilir. Gecə 1-3° , gündüz 4°-dək isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 766 mm civə sütunu, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, sulu qar, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 0-4° , gündüz 4-8° isti, dağlarda gecə**



**7-12°, gündüz 2-6° şaxta olacaq. Bəzi yerlərdə yolların buz bağlama ehtimalı var.**

*QQ ASIMOV*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3204
SİFARİŞ 375
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00